

Biz bazar iqtisadiyyatını vergi yolu ilə tənzimləməliyik.

Heydər ƏLİYEV

HƏR BİR VƏTƏNDAŞ VERGİ ÖDƏMƏKDƏN ŞƏRƏF DUYMALIDIR

# Vergilər

№ 37 (828) ■ 21 sentyabr 2016 www.vergiler.az Qiyməti: 55 qəp.

# MDB Dövlət Başçıları Şurasının iclası keçirilib

**Azərbaycan Prezidenti İlham Əliyev MDB Dövlət Başçıları Şurasının iclaslarında iştirak etmək üçün sentyabrın 16-da Qırğız Respublikasına səfər edib. Dövlətimizin başçısını Qırğızıstanın Baş naziri Sooronbay Jeenbekov və digər yüksək vəzifəli dövlət və hökumət nümayəndələri qarşılayıblar. Həmin gün Qırğızıstanın paytaxtı Bişkek şəhərində MDB Dövlət Başçıları Şurasının növbəti iclası keçirilib.**



***Azərbaycan etibarlı tərəfdaş imicini qoruyub saxlayır***

MDB-nin yaradılmasının 25 illiyinə təsadüf edən iclasda Prezident İlham Əliyev çıxış edib. Dövlətimizin başçısı ötən 25 ildə MDB-nin çox böyük yol keçdiyini, zamanın sınağından çıxdığını xatırladıb, həm region, həm də dünya üçün çox böyük əhəmiyyətə malik olan bir təşkilatda xalqlarımızı, ölkələrimizi narahat edən mühüm məsələlərin müzakirə edildiyini bildirib: «Humanitar sahədə əməkdaşlıq bizim ümumi əməkdaşlığımızın əsasını təşkil edir. Bəlkə də bunsuz qarşılıqlı etimad və anlaşma bugünkü səviyyədə olmazdı. Azərbaycan öz tərəfindən həm bizim təşkilat çərçivəsində, həm də bütövlükdə müxtəlif beynəlxalq tədbirlərlə bağlı təşəbbüslər irəli sürür. Bir neçə gündən sonra Bakıda Azərbaycan və Rusiya prezidentlərinin himayəsi ilə V Beynəlxalq Humanitar Forum keçiriləcək. Bu Forum humanitar əməkdaşlıqla bağlı məsələlərin müzakirəsi üçün çox mühüm beynəlxalq məkana çevrilib. Bu məsələlər həmişə, xüsusən indiki vaxtda, bəzən humanitar əməkdaşlıq məsələlərinin müxtəlif ölkələrdə necə interpretasiya edildiyini gördüyümüz bir vaxtda diqqət mərkəzindədir».

Sonra MDB Dövlət Başçıları Şurasının geniş tərkibdə iclası olub. Qırğızıstan Prezidenti Almazbek Atambayev MDB-nin 2017-ci il yanvarın 1-dən MDB Dövlət Başçıları Şurasına sədrliyin Rusiya Federasiyasına keçəcəyini diqqətə çatdırıb. Daha sonra iclasda sənədlərin imzalanması mərasimi olub. MDB Dövlət Başçıları Şurasının budəfəki iclasında siyasi sahədə qarşılıqlı fəaliyyət, humanitar əməkdaşlıq və təhlükəsizliyin təmin edilməsi sahələrində bir çox sənəd layihəsi nəzərdən keçirilərək qəbul olunub.

***Ağ yalana sərt cavab...***

Qeyd edək ki, MDB Dövlət Başçıları Şurasının Bişkekdə keçirilən məhdud tərkibli iclasında Ermənistan prezidenti Serj Sarkisyan bu ilin aprelində cəbhə bölgəsində baş vermiş hadisələrlə bağlı Azərbaycandan şikayət xarakterli çıxış edib, bu hadisələr zamanı Azərbaycanın guya atəşkəs rejimini pozduğunu deyib. Prezident İlham Əliyev S.Sarkisyana tutarlı və sərt cavab verərək bildirib ki, Erməni tərəfi bu şikayətlərlə artıq bütün beynəlxalq təşkilatları bezdirib: «Təsəvvür edirsinizmi, vəziyyət kifayət qədər paradoksaldır: Ermənistan suveren dövlətin ərazisini işğal edir, onun ərazi bütövlüyünü pozur, Dağlıq Qarabağdan və ona bitişik yeddi rayondan yerli azərbaycanlı əhalini qovur, bir milyon insanı qaçqın və məcburi köçkün vəziyyətinə salır, işğal edilmiş ərazilərdə hər şeyi, o cümlədən tarixi, dini, mədəni abidələrimizi, bütün infrastrukturu dağıdır, - bu, ATƏT-in iki missiyasının məruzələri ilə təsdiq edilib, - sonra isə 20 ildən artıq müddətdə danışıqlar prosesini imitasiya etməklə məşğul olur. Eyni zamanda, bu prosesin sonsuz olması üçün vaxtaşırı müxtəlif təxribatlara əl atır və onlardan biri məhz bu ilin aprelində oldu. Azərbaycanın dinc sakinlərinin beş yüzdən çox evi erməni ordusu tərəfindən artilleriya atəşinə məruz qaldı, yüzdən çox ev dağıdıldı, aralarında uşaqlar da olmaqla, təxminən on dinc vətəndaş qətlə yetirildi, həlak oldu».

Azərbaycanın dövlət başçısı bildirib ki, beynəlxalq təşkilatlar bu məsələnin necə tənzimlənməli olduğunu çox dəqiq anlayırlar. Ali beynəlxalq struktur var - BMT Təhlükəsizlik Şurası. Bu strukturdan yüksəyi yoxdur. Təhlükəsizlik Şurası 1990-cı illərin əvvəllərində dörd qətnamə qəbul edib. Həmin sənədlərdə erməni işğalçı qüvvələrinin Azərbaycan ərazisindən qeyd-şərtsiz və dərhal çıxarılması tələb olunur. Bu qətnamələr yerinə yetirilmir. Ermənistan onlara məhəl qoymur və keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin inzibati sərhədlərini süni şəkildə dəyişdirməklə, həmin ərazini qanunsuz məskunlaşdırmaqla yeni reallıqlar yaratmağa çalışır. Bu, tamamilə qanunsuzdur, cinayətdir və bu cinayət indiyə qədər davam edir.

Prezident İlham Əliyev Azərbaycanın sülh prosesinə sadiq olduğunu, konstruktiv işlədiyini, amma erməni tərəfin Minsk qrupu formatından yalnız danışıqlar prosesinin sonsuz olması üçün istifadə etdiyini vurğulayıb: «Onlar sülh istəmirlər. Onlar bizim ərazilərimizi daim nəzarət altında saxlamaq və hər yerdə Azərbaycanı bunda ittiham etmək istəyirlər ki, guya biz nəyisə pozuruq. Biz zərər çəkmiş tərəfik. Biz heç kəsin ərazisini işğal etməmişik. Bizim ərazilərimiz, beynəlxalq birlik tərəfindən tanınmış Azərbaycan ərazilərinin 20 faizi işğal altındadır. Reallıqlar bundan ibarətdir. Buna görə mən Ermənistan prezidentinin növbəti yersiz şikayətini nəzərə alaraq, bir daha bunları həmkarlarımızın diqqətinə çatdırmağı özümə borc bildim».

# İxracyönümlü məhsulların istehsalı ölkəyə valyuta axınını təmin edəcək

## *Pambıqçılığın inkişafına dair birinci ümumrespublika müşavirəsi keçirilib*

Prezident İlham Əliyev sentyabrın 17-də Sabirabad rayonuna səfər edib. Dövlətimizin başçısı xalqımızın ümummilli lideri Heydər Əliyevin Sabirabad şəhərinin mərkəzi meydanındakı abidəsini ziyarət edərək önünə gül dəstəsi qoyub.



Sabirabad rayonunda Sosialist Əməyi Qəhrəmanı Fatma Hüseynovanın pambıq tarlası ilə tanışlıq zamanı pambıqçılarla görüşən dövlətimizin başçısına 15 hektar sahədə yaxşı məhsul yetişdirmək üçün onlara hər cür şərait yaradıldığı bildirilib. Prezident İlham Əliyev pambığın inkişafının planlı şəkildə aparılmalı olduğunu, hazırda 51 min hektar əkinin ölkə üzrə təxminən 120-130 min hektara çatdırılmasının vacibliyini diqqətə çatdırıb.

Həmin gün Azərbaycan Prezidentinin sədrliyi ilə Sabirabadın Mədəniyyət evində pambıqçılığın inkişafı məsələlərinə dair respublika müşavirəsi keçirilib. Tədbirdə giriş nitqi ilə çıxış edən Prezident İlham Əliyev müşavirənin Sabirabad rayonunda keçirilməsinin təsadüfi olmadığını bildirib. Qeyd edib ki, 1970-ci illərdə, 1980-ci illərin əvvəllərində ulu öndər Heydər Əliyev Sabirabadda hər il zona müşavirəsi keçirirdi. Pambıqçılıqla bağlı o müşavirələrdə çox dəyərli göstərişlər verilirdi. Bu ənənəyə sadiq olaraq, pambıqçılığın inkişafı ilə bağlı birinci ümumrespublika müşavirəsinin keçirilməsi üçün məhz Sabirabad rayonu seçilib: «Mən əminəm ki, Sabirabad rayonunda və bütün başqa pambıq əkilən rayonlarımızda pambıqçılığın bərpası işi sürətlə gedəcək, biz pambıqçılığın şöhrətini bərpa edəcəyik. Bu, həm insanlar, həm dövlət üçün böyük gəlir gətirən bir sahədir».

Dövlətimizin başçısı pambıqçılığın bu gün tənəzzülə uğradığını, bunun müəyyən obyektiv və subyektiv səbəbləri olduğunu deyib. Artıq kənd təsərrüfatının ənənəvi sahələrinin, üzümçülük, pambıqçılıq, tütünçülük, çayçılıq, baramaçılıq və digər sahələrin inkişaf etdirilməsi ilə bağlı məqsədli proqramların hazırlanaraq həyata keçirildiyini xatırladan Prezident İlham Əliyev 2016-cı ilin bu istiqamətdə dönüş ili olacağını diqqətə çatdırıb: «Bu il baramaçılıqda böyük inkişaf müşahidə olunur. Əgər 2015-ci ildə cəmi 200 kiloqram yaş barama istehsal olunubsa, bu il 70 tona çatıb. Görüləcək tədbirlər nəticəsində bir neçə ildən sonra Azərbaycanda min ton barama tədarük ediləcək. Bu il tütünçülüklə bağlı ciddi addımlar atılıb. Biz tütünün tədarükünü iki dəfə artırmaq niyyətindəyik. Əvvəlki illərdə üzümçülüklə bağlı görülmüş tədbirlər öz bəhrəsini verir. Ancaq hesab edirəm ki, bu, lazımi səviyyədə deyil və daha da böyük investisiyalar qoyulmalıdır. İxrac qabiliyyətli məhsulların istehsalını artırmaq üçün müxtəlif bölgələrdə böyük fındıq bağları salınacaq. Demək olar ki, mövcud fındıq bağlarından iki dəfə çox yeni bağlar salınacaq. Artıq yerlər də müəyyən edildi və işlər görülür. Səmərəsiz istifadə olunan torpaqlarda planlı şəkildə növbəli əkin təmin ediləcək».

Dövlət başçısı qeyd edib ki, ixracyönümlü məhsulların istehsalı bu gün ölkə qarşısında prioritet vəzifə olaraq dayanır və bu vəzifə icra edilməlidir: «Dünyada neftin qiymətinin düşməsi ilə bağlı bizim gəlirlərimiz də azalıb. Əgər qiymət üç-dörd dəfə düşürsə, gəlirlər də üç-dörd dəfə azalır. Biz Azərbaycana valyuta axınını təmin etməliyik. Ona görə, ixracyönümlü məhsulların istehsalı xüsusi əhəmiyyət daşıyır. Pambıq da ixracyönümlü məhsuldur. Təsadüfi deyil ki, pambığa «Ağ qızıl» deyirlər. Bu il pambıqçılığın bərpasının birinci ilidir. İndi statistikaya baxdıqda göz önünə çox acınacaqlı mənzərə çıxır. Əgər Ulu Öndərin yorulmaz səyləri və zəhmətkeşlərin böyük fədakarlığı nəticəsində 1970-80-ci illərdə bir milyon ton pambıq tədarük edilirdisə, keçən il cəmi 35 min ton yığılıb. Əgər o illərdə 300 min hektarda pambıq əkilirdisə, keçən il cəmi 18 min hektarda pambıq əkilib. Keçən il 35 min ton pambıq yığılıbsa, bu il ən azı 100 min ton pambıq yığılmalıdır. Gələn il üçün bizim daha da böyük planlarımız var. Gələn ilə hazırlıq işləri artıq başlayıb».

Pambıqçılığın inkişafının iqtisadi məsələlərin həlli ilə yanaşı, eyni zamanda, sosial məsələ olduğunu deyən dövlətimizin başçısı bildirib ki, bu il 24 rayonda pambıq tarlalarında 70 minə yaxın insanın işləyəcəyini və bunun məşğulluğun artırılmasında mühüm roluna toxunub. Qeyd edib ki, pambıqçılıq təsərrüfatlarından məhsulun alış qiymətinin artmalı olduğunu, bununla bağlı müvafiq orqanlara tapşırıq verdiyini, pambıqçılığın inkişafının stimullaşdırılması üçün əlavə tədbirlər görülməli olduğunu diqqətə çatdırıb.

Müşavirədə yekun nitqi ilə çıxış edən Prezident İlham Əliyev istehsalın artırılması üçün digər zəruri işlərin görülməsini, pambığın qəbul məntəqələrinə və emal zavodlarına daşınması üçün magistral yollarda təhlükəsiz hərəkətin, tədarük və emal məntəqələrinin fasiləsiz elektrik enerjisi ilə təmin edilməsini tapşırıb. Bildirib ki, verilən tapşırıqların icrası sayəsində 2017-ci ildə 250-300 min ton pambıq istehsal etmək mümkün olacaq.

# Keyfiyyətli neft məhsullarının ixrac potensialı artacaq

Prezident İlham Əliyev sentyabrın 19-da Heydər Əliyev adına neft emalı zavodunun yenidən qurulması layihəsi çərçivəsində yeni bitum istehsalı qurğusunun təməlqoyma mərasimində iştirak edib.

Bildirilib ki, qurğunun inşası məqsədilə detallı layihələndirmə, satınalma və tikintinin idarə edilməsi işlərinin həyata keçirilməsi üçün bu sahədə qabaqcıl təcrübəyə malik Avstriyanın «Poerner» şirkəti ilə müqavilə imzalanıb. Qurğunun inşası ilə keçmiş «Azərneftyağ» neft emalı zavodunun mövcud infrastrukturu istismardan çıxarılacaq, dənizkənarı ərazilər boşaldılaraq «Ağ şəhər» layihəsinin reallaşdırılması üçün təhvil veriləcək. Proqrama əsasən, 2019-cu ildə Heydər Əliyev adına neft emalı zavodunda «avro-5» standartı üzrə dizel yanacağı, 2020-ci ildə isə «avro-5» standartı üzrə benzin istehsalı planlaşdırılıb. Layihənin reallaşdırılması ilə zavodun emal gücü 7,5 milyon tona qədər artırılacaq, nəticədə ölkənin növbəti 15-20 il üçün avtomobil yanacaqlarına olan daxili tələbatı tam ödəniləcək və keyfiyyətli neft məhsulları üzrə ixrac potensialı daha da artırılacaq.

Dövlətimizin başçısı Heydər Əliyev adına neft emalı zavodunun yenidən qurulması layihəsi çərçivəsində yeni bitum istehsalı qurğusunun təməlini qoyub.

## BU NÖMRƏMİZDƏ

VERGİLƏR NAZİRİ FÜZULİDƏ VƏTƏNDAŞLARI QƏBUL EDƏCƏK 2

KONSTİTUSİYAYA ƏLAVƏ VƏ DƏYİŞİKLİKLƏR MÜASİR DÖVRÜN TƏLƏBİDİR 3

VERGİ ÖDƏYİCİLƏRİNİN DAHA SƏMƏRƏLİ MƏLUMATLANDIRILMASI ÜÇÜN... 4

VERGİ İSLAHATLARI İCTİMAİYYƏTİN MÜZAKİRƏSİNDƏ... 5

# Vergilər naziri Füzulidə vətəndaşları qəbul edəcək

Azərbaycan Respublikası Prezidentinin tövsiyələrinə uyğun olaraq, vergilər naziri Fazil Məmmədov sentyabrın 23-də Füzuli rayonunun Horadiz şəhərindəki Muğam Mərkəzində Füzuli, Ağcabədi, Beyləqan və Xocavənd rayonlarından olan vətəndaşları qəbul edəcəkdir.

Qəbulda vergilərin hesablanması, ödənilməsi, vergi nəzarəti tədbirləri sahəsində sahibkarların qarşılaşdıqları problemlər, vergi qanunvericiliyinin və inzibatçılığının tətbiqi və vergi ödəyicilərinə göstərilən xidmətlərlə bağlı müraciətlərə baxılacaqdır.

Füzuli, Ağcabədi, Beyləqan və Xocavənd rayonlarından olan vətəndaşlar Vergilər Nazirliyinin «195» Çağrı Mərkəzi, 8 saylı Ərazi Vergilər İdarəsi (əlaqələndirici şəxs: Mahir Qarayev, tel.: 02122-5-25-52 və ya 050-330-77-55) və Füzuli Rayon Vergilər Şöbəsi (əlaqələndirici şəxs: Əlövsət Əliyev, tel.: 02631-5-54-54 və ya 050-332-70-26) vasitəsilə əlaqə saxlayıb qəbula yazıla bilərlər.

# Əməkdaşların nəzəri biliklərinin və praktiki hazırlıqlarının artırılması məqsədilə...

Vergilər Nazirliyi yanında Vergi Cinayətlərinin İbtidai Araşdırılması Departamentinin müstəntiq və təhqiqatçılarının cinayət və cinayət-prosessual qanunvericiliyi üzrə nəzəri biliklərinin və praktiki hazırlıqlarının artırılması məqsədilə Vergilər Nazirliyi və Baş Prokurorluğun rəhbərliyi tərəfindən imzalanmış əmrə əsasən, sentyabrın 19-dan etibarən Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin inzibati binasında birgə təlimlərə başlanılmışdır.





Tədbirdə bildirilmişdir ki, Vergilər Nazirliyinin ardıcıl və məqsədyönlü şəkildə həyata keçirdiyi təşkilati və hüquqi islahatların, ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən Baş Prokurorluq tərəfindən bu sahəyə nəzarətin düzgün təşkilinin və göstərilən əməli köməkliyin, habelə mövcud ikitərəfli işgüzar münasibətlərin nəticəsi olaraq, nazirliyin səlahiyyətlərinə aid edilmiş cinayət və digər hüquqpozma hallarına, xüsusilə də vergiləri ödəməkdən yayınma, qanunsuz sahibkarlıq və iqtisadi fəaliyyət sahəsində digər cinayətlərə qarşı məqsədyönlü və ardıcıl şəkildə səmərəli mübarizə tədbirləri uğurla davam etdirilir. Nazirliyin səlahiyyətlərinə aid edilmiş cinayətlər üzrə fəaliyyətin daha yüksək səviyyədə təşkili məqsədilə aparılmış işlərlə yanaşı, qurumun müstəntiq, təhqiqatçı və əməliyyatçılarının müntəzəm olaraq müvafiq təlim və tədris kurslarına cəlb edilməsi mühüm əhəmiyyət kəsb edir. Birgə əməkdaşlığın daha da inkişaf etdirilməsi, o cümlədən cinayətkarlığa qarşı mübarizə, insan hüquq və azadlıqlarının müdafiəsi sahəsində beynəlxalq müqavilə və konvensiyaların tətbiqi təcrübəsinin təkmilləşdirilməsi, vergi cinayətkarlığına qarşı mübarizədə ibtidai araşdırmanın keyfiyyətinin artırılması sahəsində hüquqi yardımın göstərilməsi məqsədilə təşkil olunan təlimlər oktyabrın 8-dək davam edəcəkdir. Mövzuların dinləyicilər tərəfindən mənimsənilmə dərəcəsini və təlimlərin effektivliyini müəyyən etmək məqsədilə oktyabrın 15-də Baş Prokurorluğun Elm-Tədris Mərkəzi tərəfindən elektron formada imtahan təşkil olunacaq.

# «Kredit büroları haqqında» qanun layihəsi müzakirə edilib

Sentyabrın 19-da Milli Məclisin iqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin iclası keçirilib. İclasda iştirak edən Maliyyə Bazarlarına Nəzarət Palatasının Direktorlar Şurasının sədri Rüfət Aslanlı «Kredit büroları haqqında» qanun layihəsinin əhəmiyyətindən danışaraq bildirib ki, layihə ilə bağlı Azərbaycan hökuməti beş ildir bir sıra beynəlxalq təşkilatlarla birlikdə işləyir: «Hələ beş il bundan əvvəl Dünya Bankı və Azərbaycan Respublikasının Mərkəzi Bankı o zaman bank tənzimlənməsi ilə məşğul olan bir orqan kimi aparıcı bankların, maliyyə qurumlarının iştirak etdiyi xüsusi işçi qrup yaratmışdı. İşçi qrup qanunun ilkin layihəsini hazırladıqdan sonra qanun layihəsi bir neçə dəfə müxtəlif instansiyalarda müzakirələrdən keçdi və nəhayət, təxminən iki il əvvəl həmin müzakirələr dayandırıldı. Maliyyə Bazarlarına Nəzarət Palatası formalaşdıqdan sonra bu qanunvericilik təşəbbüslərinin statusu ilə maraqlandı. Bunun da mühüm səbəbi var. Çünki kredit büroları insanların populyar maliyyə xidməti olan bank kreditlərindən istifadəsini yüngülləşdirən ən mühüm institutlardan biridir».

### Əsas vəzifə maliyyə inklüzivliyini, hər bir insanın və iş adamının maliyyə xidmətinə sərbəst qaydada çıxışını təmin etməkdir

Daha sonra Rüfət Aslanlı qanun layihəsini təqdim edib. Qeyd olunub ki, kredit büroları banklar və digər borc verən təsisatlar, bank olmayan kredit təşkilatları və investisiya təsisatları banklardan və kredit verən institutlardan kredit və yaxud digər formada borc götürmüş və ya belə bir borcu götürmək arzusu olan fiziki və hüquqi şəxslərin əvvəlki borclarının tarixi və həmçinin borc almaq istəyənin ödəmə qabiliyyətinin qiymətləndirilməsinə imkan verən digər məlumatların toplandığı bir məlumat bazasıdır. Başqa sözlə, bu kredit bürosu elə bir məlumat bazasıdır ki, orada kredit almaq istəyən hər bir şəxsin əvvəlki borcları, onların ödənmə intizamı, ödənmə statusu, o cümlədən vaxtı keçmişlər varsa onlar barədə, nə qədər müddətdə vaxtı keçməsi, ödəmə qrafiki kimi digər məlumatları özündə əks etdirən məlumat bazasıdır.

Bildirilib ki, təxminən on ilə yaxındır bu məlumat bazasına oxşar sistem, vaxtilə «Banklar haqqında» Qanun əsasında Mərkəzi Bankda yaradılmış mərkəzi kredit reyestri fəaliyyət göstərir. Lakin bunlar arasında mühüm bir fundamental fərq var. Mərkəzi kredit reyestri «Bank haqqında» Qanun əsasında yaradılmışdı və onun əsas mandatı requlyatorun, yəni bank tənzimləyicisinin bankların vermiş olduğu kreditlərin vəziyyətini, bununla da bankların aktivlərinin keyfiyyətini və kapital durumunu qiymətləndirməyə xidmət edir. Ona görə də məhz bu mandata uyğun məlumatlar toplayır. «Kredit büroları» isə potensial borc alanların banklardan daha sürətlə, daha az məsrəflə, daha məqbul şərtlərlə kredit almasına dəstək verəcək bir məlumat bazasıdır.

Qanun layihəsinin vacibliyindən danışan R.Aslanlı bildirib ki, qarşıda duran əsas vəzifə maliyyə inklüzivliyini, hər bir insanın və iş adamının maliyyə xidmətinə sərbəst qaydada çıxışını təmin etməkdir.

Daha sonra qanun layihəsi ətrafında müzakirələr aparılıb. Layihə parlamentin plenar iclasına tövsiyə edilib.

İclasda Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında, «Mühasibat uçotu haqqında», «Dövlət rüsumu haqqında», «Poçt haqqında», «Mühasibat uçotu haqqında», «Reklam haqqında», «Qiymətli kağızlar bazarı haqqında», «Dövlət rüsumu haqqında», «Aviasiya haqqında» qanunlarda dəyişikliklər edilməsi barədə qanun layihələri də müzakirə olunub. Bildirilib ki, bu dəyişikliklər iqtisadi islahatların dərinləşməsinə yönəlib. İclasda, həmçinin, «Azərbaycan Respublikası Hökuməti ilə İsveç Krallığı Hökuməti arasında gəlirlərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması və vergidən yayınmanın qarşısının alınması haqqında» Konvensiyanın və onun Protokolunun təsdiq edilməsi barədə, «Azərbaycan Respublikası Hökuməti ilə Malta Respublikası Hökuməti arasında gəlirlərə görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması və vergidən yayınmanın qarşısının alınması haqqında» Konvensiyanın və onun Protokolunun təsdiq edilməsi barədə qanun layihələrinə də baxılıb.

Sonda qanun layihələri Milli Məclisin plenar iclasına tövsiyə edilib.

# İtaliya Azərbaycanı məlumat mübadiləsi üzrə tərəfdaşların «Ağ siyahı»sına daxil edib

## *Bu, İtaliya bazarında çalışan Azərbaycan rezidentlərinə geniş vergi güzəştləri əldə etməyə şərait yaradacaq*

İtaliya vergi məlumatlarının əlverişli mübadiləsini təmin edən yurisdiksiyaların yeni «ağ siyahısını» dərc edib. Bu siyahı İtaliya ilə vergi sahəsində məlumat mübadiləsini həyata keçirmək üçün müvafiq razılaşmalar bağlamış və vergi məlumatlarının əlverişli mübadiləsini həyata keçirən ölkə və yuridiksiyaları əhatə edir. İtaliyanın İqtisadiyyat və Maliyyə Nazirliyi tərəfindən avqust ayında qəbul edilən və «Offical Gazette» qəzetində dərc edilən yeni siyahı sentyabrın 6-dan qüvvəyə minib.

Azərbaycan və İtaliya arasında vergi məlumatlarının mübadiləsinə əsas verən ikiqat vergitutmanın aradan qaldırılması haqqında sazişin mövcud olmasına, həmçinin hər iki dövlətin «Vergi məsələlərində qarşılıqlı inzibati yardım haqqında» Avropa Şurası və İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (OECD) birgə çoxtərəfli Konvensiyasının üzvü olmasına baxmayaraq, İtaliya tərəfindən «Ağ siyahı»nın artıq uzun müddətdir ki, yenilənməməsi səbəbindən, Azərbaycan Respublikasının adı siyahının əvvəlki versiyasında əksini tapmamışdı.

Ümumilikdə, yeni siyahıya 123 ölkənin adı daxil edilib və bundan sonra siyahının hər 6 aydan bir yenilənəcəyi gözlənilir. Siyahının əvvəlki versiyasında 73 dövlətin adı olsa da, hazırda siyahıya əlavə edilmiş 50 dövlətin arasında isə Azərbaycanla yanaşı, Gürcüstan, İsveçrə, Serbiya, Monteneqro, Malayziya kimi dövlətlər də vardır. «Ağ siyahı»nın yenilənməsindən əlavə, buraya daxil olan ölkələrin rezidentlərinə verilən güzəştlərə də yenidən baxılıb. Belə ki, siyahıya daxil edilmiş ölkələrin rezidentləri və ya «institusional» investorlara 239/1996 nömrəli Qanunvericilik Dekreti ilə təmin edilən vergi rejimində vergiyə cəlb olunan bəzi maliyyə alətlərindən əldə edilən faiz gəliri ilə bağlı yerli azadolma verilir. Bundan başqa, qeyri-rezident investorlar tərəfindən əldə olunan kapital artımından gəlirlər, İtaliya fondları və ya İtaliya ixtisaslaşmış fondlaşdırma şirkətlərindən əldə edilən gəlirlərə yerli vergi azadolmaları, xarici fondlardan alınan və şərti faiz çıxılmalarından əldə edilən gəlirlərə münasibətdə isə güzəştli rejimlər tətbiq edilir.

### Yeni siyahıya 123 ölkənin adı daxil edilib və bundan sonra siyahının hər 6 aydan bir yenilənəcəyi gözlənilir

«Ağ siyahı»da yer almış yurisdiksiyaların rezidenti olan qeyri-italyan vergi ödəyicilərinə verilən ən mühüm vergi güzəştləri müəyyən şərtlər daxilində İtaliya şirkətləri tərəfindən istiqrazlar üzrə ödənilən faizlərin, depozitlərdən faizlərin, siyahıya daxil olan dövlətlərin institusional investorlarının orta və uzunmüddətli kreditlərə görə əldə etdikləri faizlərin, İtaliya kollektiv investisiya təşkilatlarında iştirakdan gəlirlərin və xarici investisiya fondları və «Ağ siyahı»da yer alan ölkələrdə yaradılmış pensiya fondları tərəfindən İtaliyada əldə olunan daşınmaz əmlak fondlarından gəlirlərin 26%-lik vergidən azad edilməsini misal göstərmək olar.

Məlum olduğu kimi, həm Azərbaycan, həm də İtaliya OECD-nin vergi məsələlərində şəffaflıq və məlumat mübadiləsi üzrə Qlobal Forumunun üzvləridir. Forum çərçivəsində üzv dövlətlər tərəfindən aparılan məlumat mübadiləsinin beynəlxalq standartlara uyğunluq səviyyəsi qiymətləndirilir. Bu isə Azərbaycan və İtaliyanın səlahiyyətli orqanları arasında vergi məlumatlarının mübadiləsinin mövcud beynəlxalq standartlara uyğun şəkildə həyata keçirilməsinə imkan yaradır. Azərbaycanın Qlobal Foruma üzv olması ölkəmizin beynəlxalq arenada şəffaflıq və məlumat mübadiləsi üzrə etibarlı və fəal tərəfdaş kimi rolunu daha da gücləndirib. Əlavə olaraq bildirək ki, Vergilər Nazirliyi tərəfindən cari il ərzində Azərbaycanın adının «Ağ siyahı»ya daxil edilməsi məqsədilə həm İtaliyanın İqtisadiyyat və Maliyyə Nazirliyi, həm də vergi administrasiyası ilə intensiv müzakirələr və danışıqlar aparılıb. Görülmüş işlərin nəticəsində yenidən dərc olunmuş «Ağ siyahı»ya Azərbaycan Respublikasının da adı əlavə edilib.

# Müraciətlərə vaxtında baxılıb

2016-cı ilin avqust ayı ərzində vergi orqanlarına 6503 müraciət daxil olub. Onlardan 94%-i ərizə, 5,8%-i şikayət, 0,2-i% isə təklifdir. Müraciətlərin 37,9%-i müxtəlif arayışların alınması, 29,3%-i kameral vergi yoxlamaları, 6,5%-i vergi borcları, 2,6%-i vergidən yayınma və dividendlərin verilməsi, 1,9%-i səyyar vergi yoxlamaları, 1,1%-i qəbul, 1,3%-i nağd hesablaşmaların aparılması qaydalarının pozulması, 0,5%-i işlə təmin edilmək, 0,6%-i qanunsuz sahibkarlıq fəaliyyəti, 0,3%-i vergi orqanlarının vəzifəli şəxslərinin hərəkəti (hərəkətsizliyi), 0,4%-i korrupsiya hüquqpozmaları, 16,1%-i isə digər məsələlərlə bağlıdır.

Bütün müraciətlərə vaxtında baxılıb, onların 62,6%-i müsbət həll olunub.

Avqust ayında vergi orqanları tərəfindən ümumilikdə 303 vətəndaş qəbul edilib, onlara qanunvericilik çərçivəsində lazımi yardım göstərilib və ya müvafiq izahatlar verilib.



# Konstitusiyaya əlavə və dəyişikliklər müasir dövrün tələbidir

Sentyabrın 26-da ölkəmizdə Konstitusiyaya əlavə və dəyişikliklərlə bağlı ümumxalq səsverməsi (referendum) keçiriləcək. Konstitusiyaya dəyişikliklərlə əlaqədar vətəndaşların müzakirəsinə 29 maddə təqdim olunacaq ki, onlardan 23-ü dəyişiklik, 6-sı isə əlavədir. Konstitusiyaya təklif olunan əlavə və dəyişikliklər ictimai-siyasi, hüquqi, iqtisadi-sosial sahələri əhatə etməklə ümumilikdə ölkədə demokratik islahatların davam etdirilməsini nəzərdə tutur. Bu baxımdan, Referendum Aktı layihəsində əksini tapan məsələlər bir çox sahələrdə - sahibkarlıq, insan hüquqları, milli təhlükəsizlik, idarəetmə və digər istiqamətlərdə həyata keçirilən islahatların davamı kimi səciyyələndirilə bilər. Layihədə əksini tapan əlavə və dəyişikliklər Azərbaycanın inkişafının davamlı xarakter daşımasına, dövlət müstəqilliyinin möhkəmləndirilməsinə xidmət edir.

Onu da qeyd edək ki, bu, müstəqillik tariximizdəki sayca üçüncü referendumdur. 12 noyabr 1995-ci il tarixində ümumxalq səsverməsi ilə qəbul edilmiş Konstitusiyamıza 24 avqust 2002-ci il və 18 mart 2009-cu il tarixlərində keçirilmiş referendumlar çərçivəsində müəyyən əlavə və dəyişikliklər olunub. 24 avqust 2002-ci ildə 24 maddəsində 32, 18 mart 2009-cu ildə isə 29 maddəsində 41 əlavə və dəyişiklik edilərək Konstitusiyamız bir daha təkmilləşdirilib, konstitusion norma və prinsiplər dövrün tələblərinə uyğunlaşdırılıb.

Hazırda ölkəmizdə bundan sonrakı dövrün daha dinamik yüksəlişini təmin etmək, dövlət müstəqilliyini möhkəmləndirmək, siyasi sistemi təkmilləşdirmək üçün zaman növbəti islahatların həyata keçirilməsini tələb edir. Cəmiyyət və dövlət həyatında baş verən fundamental dəyişikliklər, demokratik hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğu istiqamətində həyata keçirilən uğurlu islahatlar, insanın, onun hüquq və azadlıqlarının ali dəyərlər kimi tanınması və təmin olunması strategiyası ilə bağlı dövlətin öz üzərinə götürdüyü öhdəliklərin yerinə yetirilməsinə sadiqliyi və bu sahədə beynəlxalq hüquq normalarının üstünlüyünün qəbul olunması, Azərbaycanın dünyaya, ilk növbədə Avropa məkanına sürətli inteqrasiyası, çoxsaylı beynəlxalq təşkilatlara üzv olması, habelə dünya dövlətləri ilə beynəlxalq hüquq prinsipləri çərçivəsində səmərəli əməkdaşlıq aparması, ölkə iqtisadiyyatının sürətli inkişafı və onun dünya iqtisadiyyatının ayrılmaz tərkib hissəsinə çevrilməsi və mühüm layihələrin həyata keçirilməsi, eləcə də digər məsələlər Konstitusiyada növbəti düzəlişlərin edilməsi zərurətini meydana çıxarıb.

> Azərbaycan Respublikasının Referendum Aktı layihəsinin ictimaiyyətin geniş müzakirəsinə təqdim edilməsi ölkəmizin bundan sonrakı həyatında daha qüdrətli dövlətçiliyə və cəmiyyət həyatında yeni inkişafa nail olmaq zərurətindən irəli gəlir

Prezident İlham Əliyevin «Azərbaycan Respublikasının Konstitusiyasında dəyişiklik edilməsi haqqında» Azərbaycan Respublikasının Referendum Aktının layihəsini cəmiyyətin geniş müzakirəsinə təqdim etməsi ölkəmizin bundan sonrakı həyatında daha qüdrətli dövlətçiliyə və cəmiyyət həyatında yeni inkişafa nail olmaq zərurətindən irəli gəlir.

Milli Konstitusiyamıza əlavə və dəyişikliklərin edilməsi məqsədilə keçirilən referendum Azərbaycan dövlətinin insan hüquq və azadlıqlarının qorunmasına, ölkənin hərtərəfli inkişafına göstərdiyi diqqətin bariz nümunələrindəndir. Konstitusiyanın «Dövlətin ali məqsədi» maddəsində də insan və vətəndaş hüquqlarının və azadlıqlarının, Azərbaycan Respublikasının vətəndaşlarına layiqli həyat səviyyəsinin təmin edilməsinin dövlətin ali məqsədi olduğu öz əksini tapıb. Azərbaycan Respublikası Konstitusiyasının 12-ci maddəsində müəyyən edilmişdir ki, insan və vətəndaş hüquq və azadlıqlarının, vətəndaşlara layiqli həyat səviyyəsinin təmin edilməsi dövlətin ali məqsədidir. Respublikamızda gedən demokratikləşmə prosesi, ictimai həyatın bütün sahələrində aparılan uğurlu islahatlar, beynəlxalq miqyasda əldə olunmuş nailiyyətlər insan hüquqları kimi həssas və daim konseptual yanaşmaların müəyyən olunmasını tələb edən sahədə tənzimləyici milli mexanizmlərin daha da təkmilləşdirilməsini və ardıcıl tədbirlərin həyata keçirilməsini vacib edir.

> Konstitusiyaya təklif edilən dəyişikliklərdə insan hüquq və azadlıqlarının təminatını daha da gücləndirən, onun inkişafına rəvac verən kifayət qədər məqamlar öz əksini tapıb

Konstitusiyaya təklif edilən dəyişikliklərdə insan hüquq və azadlıqlarının təminatını daha da gücləndirən, onun inkişafına rəvac verən kifayət qədər məqamlar öz əksini tapıb. Əlavə və dəyişikliklərdə insanların şərəf və ləyaqətinin qorunması, onların hüquqlarının müdafiə olunması, ayrı-ayrı orqanlarda vətəndaşların müraciətlərinə baxılması, onların təhlükəsizliyinin təmin olunması, o cümlədən müasir dövrdə informasiya-kommunikasiya texnologiyalarından istifadə etməklə fərdin hüquqlarının pozulmasının qarşısının alınması kimi məsələlər əsas götürülüb. Ümumilikdə, təklif olunan 23 dəyişikliyin 16-sı, yəni üçdə ikisi insan hüquq və azadlıqlarının qorunması mexanizminin təkmilləşdirilməsi ilə əlaqədardır.

Yeni çağırışların və cəmiyyətimizin inkişafından irəli gələn tələbatların nəzərə alınması baxımından Konstitusiya dəyişiklikləri ölkəmizin siyasi sahədə milli maraqlarından biri olan insan hüquqlarının təmin olunması üzrə görülən ardıcıl tədbirlərin genişləndirilməsinə, hüquq-müdafiə mexanizmlərinin təkmilləşdirilməsinə töhfə verəcək, insan hüquqlarının qorunmasının gücləndirilməsində yeni mərhələnin başlanğıcı olacaq.

Konstitusiya islahatları iqtisadi idarəetmənin təkmilləşdirilməsi və yeni iqtisadi reallıqların nəzərə alınması baxımından da mühüm əhəmiyyət kəsb edir. Prezident İlham Əliyev hökumət üzvləri ilə görüşdə «Yeni dövr yeni yanaşmalar tələb edir» deyərək milli iqtisadiyyatın yenidən balanslaşdırılması və bu əsasda daha dayanıqlı və şaxələndirilmiş iqtisadi artımın təmin olunmasının strateji çağırış olduğunu bəyan edib.

Hazırkı şərait yeni yanaşmalar tələb edir, bu baxımdan idarəetmə sisteminin təkmilləşdirilməsi naminə bir sıra strukturların birləşdirilməsi zərurəti yaranıb. Bu istiqamətdə 2016-cı ilin əvvəllərindən başlayaraq mühüm islahatlar həyata keçirilib, funksional baxımdan tələblərə cavab verməyən qurumlar ləğv edilib, yaxud müasir formatda təsis olunub, yeni sivil idarəetmə strukturları yaradılıb. Dövlət idarəetmə aparatında islahatların aparılması olduqca aktual məsələdir.

Azərbaycan dövlət quruluşuna görə prezidentli respublikadır. Prezident üsul-idarə sisteminin mövcud olduğu bir sıra ölkələrdə ölkə başçısı 7 il müddətinə seçilir və ali icraedici hakimiyyətin rəhbəri kimi, onun özünə birinci vitse-prezident və ya vitse-prezidentlər təyin etmək hüququ var. Bu sistem idarəetmədə yeni keyfiyyət meyarlarının yaranmasına səbəb olur. Təklif edilən dəyişikliklərə əsasən, vitse-prezidentlik institutunun yaradılması idarəetmə sisteminin ən müasir platformaya çatdırılması deməkdir.

Layihədə Konstitusiyanın 29-cu maddəsində V və VI hissələrə müvafiq olaraq «Xüsusi mülkiyyət sosial öhdəliklərə səbəb olur», «Sosial ədalət və torpaqlardan səmərəli istifadə məqsədilə torpaq üzərində mülkiyyət hüququ qanunla məhdudlaşdırıla bilər» ifadəsi yer alıb. Bu gün ən zəngin sərvət olan torpaqlardan səmərəli istifadə çox aktualdır. Hazırkı dövrdə qeyri-neft sektorunun inkişaf etdirilməsində və ölkəmizdə ərzaq təhlükəsizliyinin təmin olunmasında torpaq ehtiyatları əsas baza rolunu oynayır. Dövlətin məqsədi aqrar sahədə insanların diqqətinin torpaqdan maksimum istifadəyə yönəldilməsidir. Konstitusiyaya ediləcək yeni dəyişiklər torpaq mülkiyyəti və aqrar sahədə olan fundamental problemlərin həlli baxımından mühüm əhəmiyyət daşıyır. Sosial ədalət və torpaqlardan səmərəli istifadə məqsədilə torpaq üzərində mülkiyyət hüququnun qanunla məhdudlaşdırılması da məhz bu çağırışlardan irəli gəlir.

> Konstitusiya islahatları iqtisadi idarəetmənin təkmilləşdirilməsi və yeni iqtisadi reallıqların nəzərə alınması baxımından mühüm əhəmiyyət kəsb edir

Referendum Aktı layihəsində yer alan vacib məsələlərdən biri də mülkiyyətlə bağlıdır. Məlumdur ki, bəzi hallarda mülkiyyət sahiblərinin davranışları və fəaliyyəti Azərbaycanın sosial dövlət fəlsəfəsinə uyğun gəlmir. Bir çox hallarda mülkiyyətçilər və ya sahibkarlar sahib olduqları mülkiyyətdən səmərəli istifadə olunmasında maraqlı olmur, bəzən isə inhisarçı və istismarçı mövqedə dururlar. Bu isə Azərbaycanın ümumi iqtisadi maraqlarına cavab vermir və belə məsələlərin tənzimlənməsi zərurəti ortaya çıxır. Bununla yanaşı, sahibkarlıq subyektlərinin müxtəlif sosial layihələrdə iştirak etməsi məsələsi də vacibdir: sahibkarlar, xüsusi mülkiyyətçilər öz sosial öhdəliklərini dərk etməlidirlər.

Ölkənin müstəqilliyinin, ərazi bütövlüyünün, Konstitusiya quruluşunun təhdidlərdən qorunması, vətəndaşların hüquq və mənafelərinin təmin edilməsi milli təhlükəsizlik siyasətinin ən vacib elementləridir. Bu gün sürətlə inkişaf edən, müxtəlif sahələrdə böyük uğurlara imza atan müstəqil respublikamızın regionda rolu və mövqeyi güclənir, Azərbaycan bölgədə əsas tərəfdaşa çevrilir. Bütün bu faktorlarla bərabər, ölkəmizin Ermənistan tərəfindən hərbi təcavüzə məruz qalması, beynəlxalq terrorçuluq, qeyri-qanuni miqrasiya, transmilli mütəşəkkil cinayətkarlıq, insan alveri, narkotik vasitələrin qaçaqmalçılığı və kütləvi qırğın silahlarının yayılması kimi təhdidlərin mövcudluğu Azərbaycanın milli təhlükəsizlik siyasətinin gücləndirilməsini, milli təhlükəsizliyin daha etibarlı və möhkəm qorunmasını ən mühüm məsələ kimi qarşıya qoyur. Bu baxımdan, Referendum Aktı layihəsində təhlükəsizlik məsələlərinin yer alması böyük əhəmiyyət daşıyır.

Konstitusiyaya təklif olunan əlavə və dəyişikliklər ölkəmizin ictimai-siaysi, sosial-iqtisadi həyatında yeni keyfiyyət və dinamizm dəyişikliklərinə və Azərbaycanın inkişafında yeni mərhələnin başlanmasına səbəb olacaq.

**Anar ƏLİYEV**

# Bələdiyyələrdə vergi və ödənişlərin hesablanması, ödənilməsi qaydaları elektronlaşdırılır



Azərbaycan qanunvericiliyinə əsasən, bələdiyyələrə yerli vergilərin və ödənişlərin düzgün hesablanmasına, tam və vaxtında ödənilməsinə, habelə vergi qanunvericiliyinə tam və dəqiq riayət edilməsinə metodiki rəhbərliyi Azərbaycan Respublikasının Vergilər Nazirliyi həyata keçirir. Nazirliyin bu sahədə gördüyü işlər, bələdiyyələrdə yerli vergilərin və ödənişlərin düzgün hesablanması, tam və vaxtında ödənilməsi ilə bağlı vəziyyət haqqında məlumat almaq üçün Vergi siyasəti və strateji araşdırmalar Baş İdarəsinin Vergi qanunvericiliyinin tətbiqi şöbəsinin rəisi Əvəz Quliyevə müraciət etdik.

***- Əvəz müəllim, yerli (bələdiyyə) vergi və ödənişlərin hesablanması, ödənilməsi qaydalarının təkmilləşdirilməsi və bu sahədə uçotun düzgün təşkili məqsədilə görülmüş işlərin ümumi mənzərəsi necədir?***

- Vergilər nazirinin əmri ilə yerli (bələdiyyə) vergi və ödənişlərin hesablanması, ödənilməsi qaydalarının təkmilləşdirilməsi və bu sahədə uçotun, habelə yerli (bələdiyyə) vergilərin ödəyiciləri olan fiziki şəxslərin uçotunun elektron qaydada aparılmasının təmin edilməsi məqsədilə müvafiq metodiki vəsaitlər təsdiq edilmiş və çap olunaraq bələdiyyələrə çatdırılmışdır. Bələdiyyə üzvləri ilə görüşlər zamanı metodiki vəsaitlərin əsas məziyyətləri onlara izah olunur, sual doğuran məsələlər aydınlaşdırılır.

Bundan başqa, nazirliyin aidiyyəti struktur vahidləri və bölmələri tərəfindən Bakı şəhərinin Binəqədi, Abşeron rayonunun Saray və Şəmkir rayonunun Şəmkir bələdiyyələrində yerli (bələdiyyə) vergilərin ödəyiciləri olan fiziki şəxslərin, habelə yerli (bələdiyyə) vergi və ödənişlərin uçotunun tətbiqi üzrə pilot layihə həyata keçirilmişdir. Vergilər Nazirliyinin sifarişi əsasında yerli (bələdiyyə) vergi və ödənişlərin hesablanması, ödənilməsi qaydalarının təkmilləşdirilməsi və bu sahədə uçotun, habelə yerli (bələdiyyə) vergilərin ödəyiciləri olan fiziki şəxslərin uçotunun elektron qaydada aparılması məqsədilə 5 alt sistemdən (bəyannamə, iş qovluğu, kargüzarlıq, şəxsi hesab vərəqəsi, uçot) ibarət «Bələdiyyə Vergi İnformasiya Sistemi» (BVİS) proqram təminatı hazırlanaraq pilot layihənin həyata keçirildiyi bələdiyyələrdə quraşdırılmış və həmin proqram təminatının istifadə qaydalarını əks etdirən istifadəçi təlimatı hazırlanmışdır.

Vergilər Nazirliyinin bilavasitə təşəbbüsü və təşkilatçılığı ilə yerli (bələdiyyə) vergi ödəyicilərinin istifadəsi üçün «İnternet Bələdiyyə İdarəsi» (www.e-belediyye.gov.az) yaradılmışdır. Yerli (bələdiyyə) vergi ödəyiciləri bu sistemə daxil olmaq üçün bələdiyyələrdən şifrə və parol almaqla və ya ASAN imza və mobil imzadan istifadə etməklə onlara təqdim olunan elektron xidmətlərdən yararlana bilərlər. Bu xidmətlərə yerli (bələdiyyə) vergi ödəyicilərinin torpaq və əmlakının onlayn qeydiyyata alınması, yenidən qeydiyyatı və qeydiyyatdan çıxarılması, şəxsi hesab vərəqəsinə baxış, hesablanmış vergilərə dair bildirişlərin əldə edilməsi, yerli (bələdiyyə) vergi ödəyicilərinin qeydiyyatda olduğu bələdiyyəyə onlayn müraciəti və digər elektron xidmətlər daxildir.

***- Hazırda BVİS proqramının xidmətlərindən istifadə hansı səviyyədədir və vergi ödəyiciləri bu sistemdən tam yararlana bilirlərmi?***

- Bakı şəhərinin Binəqədi rayonunun M.Ə.Rəsulzadə, Binəqədi qəsəbə, Binəqədi, Xocəsən və Biləcəri bələdiyyələrində, Sabunçu rayonunun Bakıxanov və Ramana, Suraxanı rayonunun Qaraçuxur, Səbail rayonunun Badamdar, Xəzər rayonunun Şağan və Mərdəkan, Qaradağ rayonunun Sahil və Lökbatan, Yasamal rayonunun Yasamal, Abşeron rayonunun Saray, Mehdiabad, Masazır, Xırdalan və Görədil, Qobustan rayonunun Qobustan, Şəmkir rayonunun Şəmkir, Sumqayıt şəhərinin Sumqayıt bələdiyyələri olmaqla cəmi 22 bələdiyyədə bu proqram quraşdırılmışdır və yerli (bələdiyyə) vergi ödəyiciləri bundan tam yararlana bilirlər. Vergilər Nazirliyinin əməkdaşları BVİS proqramı və ondan istifadə qaydaları haqqında bələdiyyələri vaxtaşırı məlumatlandırır, onun işlədilməsi mexanizmləri haqqında lazım olan bütün sualları mütəmadi qaydada cavablandırır.

***- Bu gün Azərbaycanda 1607 bələdiyyə fəaliyyət göstərir. Bu bələdiyyələrin hamısını yerli (bələdiyyə) vergilərin ödəyiciləri olan fiziki şəxslərin uçotunun elektron qaydada aparılması məqsədilə müvafiq metodiki vəsaitlərlə təmin etmək, onlarda BVİS proqram təminatını quraşdırmaq mümkündürmü?***

- Bələdiyyələrə metodiki kömək göstərilməsi, onların müvafiq metodiki vəsaitlərlə təmin edilməsi sahəsində heç bir problem yoxdur. Vergilər Nazirliyinin rəsmi internet səhifəsində (www.taxes.gov.az) yaradılmış bələdiyyə bölməsində yerli özünüidarəetmə orqanlarının fəaliyyətinə aid bütün normativ hüquqi aktlar və metodiki vəsaitlər yerləşdirilmişdir. Bələdiyyələr və yerli (bələdiyyə) vergi ödəyiciləri bu mənbədən də fəal istifadə etmək imkanlarına malikdirlər.

BVİS proqram təminatının quraşdırılması ilə bağlı bizə müraciət edən bələdiyyənin ən azı bir kompüter avadanlığı olduğu halda, həmin bələdiyyədə müvafiq proqram təminatının quraşdırılması həyata keçirilir.

> Vergilər Nazirliyinin bilavasitə təşəbbüsü və təşkilatçılığı ilə yerli (bələdiyyə) vergi ödəyicilərinin istifadəsi üçün «İnternet Bələdiyyə İdarəsi» (www.e-belediyye.gov.az) yaradılmışdır

***- Qüvvədə olan qanunvericiliyə əsasən, yerli vergi və ödənişlərin ödənilməsi banklar, poçt rabitəsinin milli operatoru, habelə mövcud nağdsız ödəmə vasitələri ilə həyata keçirilir. Yəni yerli vergi və ödənişlərin bələdiyyələr tərəfindən nağd şəkildə qəbul olunması qadağandır. Qanunvericiliyin bu sahədəki tələblərinin yerinə yetirilməsi üçün nə kimi işlər görülür?***

- Bu sahədə şəffaflığın təmin edilməsi, nağdsız hesablaşmalardan geniş istifadə olunması məqsədilə yerli (bələdiyyə) vergi və ödənişlərin Mərkəzi Bank tərəfindən yaradılmış «Hökumət Ödəniş Portalı» (HÖP) infrastrukturu vasitəsilə yığılması barədə Mərkəzi Banka müraciət olunmuş və pilot olaraq seçilmiş 10 bələdiyyə HÖP-ə inteqrasiya edilmişdir. Bununla da yerli verginin ödəyiciləri HÖP-ə qoşulmuş bələdiyyə orqanları üzrə ölkənin istənilən regionundan «Azərpoçt» MMC-nin, habelə 36 bankın 2000-ə yaxın ödəniş məntəqəsindən və infrastruktura inteqrasiya olunmuş özünəxidmət terminallarından nağd formada, həmçinin ödəniş kartlarından istifadə etməklə HÖP-ün internet resursları və «Elektron hökumət» portalı vasitəsilə nağdsız formada ödənişlərini həyata keçirə bilərlər. Yuxarıda qeyd olunan istənilən üsulla yerli (bələdiyyə) vergilərin və ödənişlərin edilməsi üçün vergi ödəyicisinin eyniləşdirmə nömrəsindən (VÖEN) və ya şəxsiyyət vəsiqəsinin seriya və nömrəsindən istifadə edilməklə həyata keçirmək olar.

***Müsahibəni hazırladı:***
**Rəşad SADIQOV**



## Vergi ödəyicisinin sualı var...

Samirə Musayeva
Vergilər Nazirliyinin Vergi siyasəti və strateji araşdırmalar Baş İdarəsinin rəisi vergi ödəyicilərinin suallarına cavab verir

# Əmlakın icarəyə verilməsi ilə bağlı vergi öhdəliyi

***Sadələşdirilmiş vergi ödəyicisi olan hüquqi şəxs tərəfindən əmlakın icarəyə verilməsi zamanı hansı vergi öhdəliyi yaranır?***

Vergi Məcəlləsinin (VM) 104.1-ci maddəsinə əsasən, rezident müəssisə üçün vergitutma obyekti onun mənfəətidir. Vergi ödəyicisinin bütün gəlirləri (mənfəət vergisindən azad edilən gəlirdən başqa) ilə VM-in X fəslində göstərilən gəlirdən çıxılan xərc arasındakı fərq mənfəətdir.

Müəssisələrin mənfəətindən 20 faiz dərəcəsi ilə vergi tutulur (VM, maddəa 105.1).

Əmlakın icarəyə verilməsindən və royaltidən gəlir əldə edən şəxslərin sadələşdirilmiş vergi ödəyicisi olmaq hüququ yoxdur (VM, maddə 218.5.4).

Əmlakın icarəyə verilməsindən və royaltidən gəlir əldə edən şəxslər bu fəaliyyətlə yanaşı digər fəaliyyət növləri ilə məşğul olduqda, VM-in 218.1-ci, 218.2-ci və 218.3-cü maddələrinin müddəaları nəzərə alınmaqla, digər fəaliyyətdən əldə etdikləri gəlirlərə sadələşdirilmiş vergini tətbiq etmək hüququna malikdirlər. Bu halda əmlakın icarəyə verilməsi, royalti və digər fəaliyyət növləri üzrə əldə edilən gəlirlərin və xərclərin uçotu hər bir fəaliyyət növü üzrə ayrılıqda aparılır (VM, maddə 221.7).

**Qeyd olunanlara əsasən:**

Əmlakın icarəyə verilməsindən gəlir əldə edən şəxslərin bu fəaliyyətləri ilə bağlı sadələşdirilmiş vergini tətbiq etmək hüququ olmadığından, əmlakın icarəyə verilməsindən əldə olunan gəlirlər mənfəət vergisinə cəlb edilir.

Bundan əlavə, əmlakın icarəyə verilməsindən gəlir əldə edən şəxs bu fəaliyyət növü ilə yanaşı digər fəaliyyət növü ilə məşğul olduqda gəlirlərin və xərclərin uçotunu hər bir fəaliyyət növü üzrə ayrılıqda aparmaqla digər fəaliyyətdən əldə etdiyi gəlirlərə sadələşdirilmiş vergini tətbiq etmək hüququna malikdir.

Suallarınızı redaksiyamızın ünvanına: AZ 1073, Bakı ş., Landau küç., 16 və ya **s.musayeva@taxes.gov.az** elektron poçt ünvanına göndərə bilərsiniz




## RƏQƏMLƏRİN DİLİ İLƏ

**Yanvar-avqust aylarında...**

- Azərbaycan əhalisinin gəlirləri əvvəlki ilin eyni dövrü ilə müqayisədə nominal ifadədə 8,6% artaraq **28.972,4 milyon** manata çatıb.
- Məhsula və idxala xalis vergilər ümumi daxili məhsulun 7,3%-ni təşkil edib. Əhalinin hər nəfərinə düşən ümumi daxili məhsul **3953 manata** bərabər olub.
- Əsas kapitala **8 milyard 999,1 milyon** manat məbləğində vəsait yönəldilib.
- Əhaliyə göstərilən ödənişli xidmətlərin dəyəri ötən ilin müvafiq dövrü ilə müqayisədə 0,9 faiz artaraq **4 milyard 682,6 milyon** manata çatıb.
- Sənaye müəssisələri və bu sahədə fəaliyyət göstərən fərdi sahibkarlar tərəfindən istehsal olunan **20,3 milyard** manatlıq sənaye məhsulunun 28,2%-i emal sektorunun payına düşüb.
- Toxuculuq sənayesi, geyim, dəri və dəri məmulatları, ayaqqabı istehsalı sahələrində **75,1 milyon** manat dəyərində məhsul istehsal edilib.
- Dəmiryol nəqliyyatı ilə **9,5 milyon** ton yük, **1 milyon 235,3 min** sərnişin daşınıb.

# Vergi ödəyicilərinin daha səmərəli məlumatlandırılması üçün...

Ölkə Prezidentinin «2016-cı ildə vergi sahəsində aparılacaq islahatların istiqamətləri»nin təsdiqi və vergi inzibatçılığının təkmilləşdirilməsi haqqında» 4 avqust 2016-cı il tarixli sərəncamında vergi ödəyicilərinə göstərilən xidmətlərin müasir standartlara uyğun olaraq daha da təkmilləşdirilməsi məqsədilə Vergilər Nazirliyinin Çağrı Mərkəzində beynəlxalq təcrübədə tətbiq olunan «Outbound Call Centre» funksiyalarının tətbiqini təmin etmək tapşırılmışdır.

Bu tapşırığın icrası ilə əlaqədar nazirliyin Kollegiyası «Çağrı Mərkəzi tərəfindən əlaqə yaradılaraq vergi ödəyicilərinin məlumatlandırılması Qaydaları»nı təsdiq etmişdir. Vergilər Nazirliyinin Çağrı Mərkəzi Departamentinin rəis müavini Nurlan Bayramlı qaydaları şərh edərək demişdir ki, vergi ödəyicilərinin məlumatlandırılması zəng və mesaj xidməti vasitəsilə həyata keçiriləcək, lakin bu məlumatlandırılma vergi ödəyicisinin digər xidmət kanalları vasitəsilə məlumatlandırılmasını istisna etməyəcək. Məlumatlandırılması nəzərdə tutulan riskli vergi ödəyiciləri 5 qrupa bölünür:

- Bəyannaməni vaxtında və ya düzgün təqdim etməyəcəyi ehtimal olunan vergi ödəyiciləri;
- Ödənişləri vaxtında etməyəcəyi ehtimal olunan vergi ödəyiciləri;
- Vergi Məcəlləsinə əsasən ödəyicisi olduğu vergi növlərində uyğunsuzluqlar olan vergi ödəyiciləri;
- Yeni vergi uçotuna alınan vergi ödəyiciləri;
- Əsaslandırılmış təhlillər əsasında risk aşkarlanan digər vergi ödəyiciləri.

Bəyannaməni vaxtında və ya düzgün təqdim etməyəcəyi ehtimal olunan vergi ödəyiciləri sırasına əvvəlki hesabat dövründə bəyannaməni təqdim etməmiş və ya gecikmə ilə təqdim etmiş vergi ödəyiciləri, son hesabat dövründə fəaliyyətini dayandırmış və bəyannamə təqdim etməli olan vergi ödəyiciləri, fiziki şəxsdən obyekt icarəyə götürmüş və əvvəlki hesabat dövründə müvafiq bəyannaməni təqdim etməmiş vergi ödəyiciləri daxildir. Eləcə də əvvəlki iki hesabat dövründə bəyannaməsində eyni kod üzrə uyğunsuzluq aşkar edilmiş vergi ödəyiciləri və fəaliyyətini dayandırmış torpağı və əmlakı olan vergi ödəyiciləri də bu sıraya aid edilirlər.

Ödənişləri vaxtında etməyəcəyi ehtimal olunan vergi ödəyiciləri - qanunvericiliyə əsasən bəyannamənin təqdim edilmə müddəti ilə verginin ödənilmə müddəti fərqli olduğu hallar üzrə əvvəlki hesabat dövründə vergini vaxtında ödəməyənlər və əvvəlki iki hesabat dövrü üzrə vergilərini vaxtında ödəməyənlərdir.

Bu kateqoriyaya aid vergi ödəyicilərinin məlumatlandırılması tədbirlərinə gəldikdə, N.Bayramlının sözlərinə görə, onlara bəyannamənin təqdim edilməsinin son gününədək zəng edilməklə məlumat veriləcəkdir: Resurslara qənaət və bəyannamə təqdim etmiş vergi ödəyicilərinə lüzumsuz zəng edilməməsi üçün siyahı gündəlik yenilənəcək və tədiyyə növünə görə qruplaşdırılaraq təmsilçilər arasında bölüşdürüləcəkdir. Danışıq zamanı vergi ödəyicisinə təqdim olunmalı bəyannamə, onun nə vaxtadək və necə təqdim edilməli olduğu, habelə buna dair qanunvericilikdə müəyyən edilmiş tədbirlər barədə məlumat veriləcəkdir. Ödənişləri vaxtında etməyəcəyi ehtimal olunan vergi ödəyiciləri isə hesablamanın qanunvericiliklə müəyyən edilmiş ödənilmə müddəti bitənədək telefonla məlumatlandırılacaq. Vergi ödəyicisinə etməli olduğu ödənişlər, onun nə vaxtadək və necə həyata keçirilməsi, habelə buna dair qanunvericilikdə müəyyən edilmiş tədbirlər barədə məlumat veriləcəkdir.

Vergi Məcəlləsinə əsasən, ödəyicisi olduğu vergi növlərində uyğunsuzluqlar olan vergi ödəyicilərinin məlumatlandırılması zamanı uyğunsuzluqların aradan qaldırılması məqsədilə bəyannamənin təqdim edilməsi müddətinədək məlumat veriləcək. Telefon danışığı zamanı vergi ödəyicisinə uyğunsuzluqlar izah olunacaq, onların aradan qaldırılması yolları və qanunvericilikdə müəyyən edilmiş müvafiq tədbirlər xatırladılacaq.

**Yeni vergi uçotuna alınmış vergi ödəyicilərinin məlumatlandırılması onların vergi uçotuna alındığı tarixdən sonrakı ay ərzində aparılacaq**

Yeni vergi uçotuna alınmış vergi ödəyicilərinin məlumatlandırılması isə onların vergi uçotuna alındığı tarixdən sonrakı ay ərzində aparılacaq. Həmin vergi ödəyicilərinə ilk hesabat dövrü üzrə hesabatların təqdim edilməsi və ödənişlərin aparılması üzrə əlavə metodiki kömək də göstərilə bilər. Danışıq zamanı vergi ödəyicisinin qeydiyyat məlumatlarına əsasən Vergi Məcəlləsi və digər aidiyyəti hüquqi aktlara uyğun olaraq hüquq və vəzifələri ümumi şəkildə izah ediləcək. Vergi ödəyicisinə ay ərzində bir neçə risk qrupu üzrə məlumatın çatdırılması nəzərdə tutulduqda, ona bir zəng zamanı bütün məlumatlar təqdim ediləcək.

Rəis müavininin sözlərinə görə, mesaj xidməti vasitəsilə kütləvi və ünvanlı şəkildə vergi ödəyicilərinin məlumatlandırılması vergi ödəyicilərinin telefon nömrələrinə zəng etməklə hazır səs yazısının səsləndirilməsi və ya mobil nömrələrinə yazılı mətnlərin göndərilməsi ilə həyata keçiriləcək.

Vergilər Nazirliyinin Çağrı Mərkəzində «Outbound Call Centre» funksiyalarının tətbiqi nəticəsində vergi qanunvericiliyinə könüllü əməletmə səviyyəsinin artması gözlənilir. Həmçinin, bu xidmətin tətbiqi nəticəsində vergi qanunvericiliyinin tələbləri ilə müəyyən edilmiş müddətdə vergi öhdəliklərini vaxtında yerinə yetirməyən və ya əksər hallarda məlumatsızlıq və ya unutqanlıq səbəbindən vaxtında icra etməyən vergi ödəyicilərinin daha səmərəli məlumatlandırılması həyata keçiriləcəkdir.

**Aytən NƏBİYEVA**

# Fərdi xidmətlər göstərən şəxslər vergiyə cəlb olunmalıdır

Vergi islahatlarının istiqamətlərindən biri də uçotdan kənarda qalan sahibkarlıq fəaliyyəti sahələrinin qeydiyyata alınması, əmək müqaviləsi olmayan işçilərlə müqavilələrin bağlanması və onların vergi ödənişlərinin dövlət büdcəsinə cəlb edilməsidir. Ölkəmizdə müxtəlif peşə sahələrində çalışan minlərlə vətəndaş mülki-hüquqi müqavilə ilə işləyir və faktiki olaraq vergi ödəmir. Mülki-hüquqi müqaviləsi olmayan şəxslərin də sayı kifayət qədər çoxdur və onlardan da dövlət büdcəsinə vergi daxil olmur.

Dövlət Statistika Komitəsinin məlumatına görə, 2016-cı ilin ötən 8 ayında ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin sayı 1 milyon 521,1 min nəfər təşkil edib. Onlardan 888,8 min nəfəri iqtisadiyyatın dövlət sektorunda, 632,3 min nəfəri isə qeyri-dövlət sektorunda fəaliyyət göstərir. Muzdla işləyənlərin 22,1 faizi təhsil, 18,7 faizi ticarət və nəqliyyat vasitələrinin təmiri, 12,9 faizi sənaye, 7 faizi tikinti, 3,1 faizi kənd və meşə təsərrüfatı, qalan 35 faizlik hissəsi isə müxtəlif peşə sahələri üzrə çalışanlar olub. Muzdla çalışan işçilərin orta aylıq nominal əməkhaqqı təxminən 489,3 manat təşkil edir.

Muzdla çalışan işçilərin hər biri vergi ödəyicisi hesab olunur və hər ay gəlir vergisi ödəyir. Onlar dövlət büdcəsi qarşısında öz vergi öhdəliklərini yerinə yetirmiş hesab olunurlar. Muzdlu əmək rejimindən kənarda qalan insanlar isə qeyri-leqal məşğul qrupa aid edilirlər. Vətəndaşların Əmək Hüquqlarının Müdafiəsi Liqasının rəhbəri Sahib Məmmədovun sözlərinə görə, ölkədə məşğul əhalinin sayı 4 milyon 550 nəfər təşkil edir, əmək müqaviləsi ilə işləyənlərin sayı isə 1,5 milyon civarındadır. Yerdə qalan 3 milyon məşğul insan mülki-hüquqi müqavilə ilə işlər və xidmətlər həyata keçirənlərdir. Onlar qeyri-rəsmi əmək bazarının iştirakçılarıdır. Son illər əmək bazarında fərdi qulluqçuların, ev işçilərinin, digər peşələrin heç bir müqavilə və ya sənəd olmadan əməyə cəlb edilməsi halları artıb. Onların sırasında sahibkarlıq fəaliyyəti (foto, audio-video xidmətləri, repetitorluq, musiqi fəaliyyəti, bərbər və gözəllik salonları, ev qulluqçusu, xəstələrə, uşaqlara və qocalara qulluq xidməti, fərdi sürücülük, fərdi mühafizə, fərdi peşələr üzrə hazırlıq kursları, tərcümə və s.) ilə məşğul olanlar az deyil və bu şəxslər hazırda vergi ödənişlərini yerinə yetirmirlər. Qanunvericiliyə əsasən, fərdi xidmətlər göstərən bu şəxslər digər gəlir




əldə edənlər kimi vergi ödəməlidirlər. Bu şəxslər heç bir müqavilə, sənəd olmadan muzdla işləyənlərdir. Mövcud qanunvericiliyə və beynəlxalq normalara görə, vətəndaşlar məcburi əməyin iştirakçısı olduğu halda, onlarla müqavilələrin bağlanmaması yolverilməzdir.

S.Məmmədov hesab edir ki, problemi həll etmək üçün qanunvericilikdəki bəzi uyğunsuzluqlar aradan qaldırılmalı, Vergi Məcəlləsinə, «Sosial sığorta haqqında» Qanuna və digər normativ hüquqi aktlara müvafiq əlavə və dəyişikliklər edilməli, ev işlərinə cəlb olunan və muzdlu əmək fəaliyyəti həyata keçirən işçilərə münasibətdə fərqli verginin tətbiqinin mümkünlüyü nəzərə alınmalıdır. Məcəlləyə sahibkar olmayan fiziki şəxs anlayışı daxil edilməlidir. Həmin peşələr üzrə işləyən şəxslər sahibkar deyil, muzdlu əməyə cəlb edən tərəf kimi qeydə alınmalı, bunun müqabilində vergi ödəməlidirlər. Burada vergiqoymanın patent sisteminin tətbiqi məqsədəmüvafiqdir.

Bu məsələ Vergilər Nazirliyinin diqqət mərkəzindədir və fərdi xidmətlər göstərən şəxslərin vergiyə cəlb olunması istiqamətində müvafiq tədbirlər hazırlanır. Vergilər nazirinin müşaviri Ələkbər Məmmədov bildirib ki, Prezident İlham Əliyevin avqustun 4-də imzaladığı «2016-cı ildə vergi sahəsində aparılacaq islahatların istiqamətləri»nin təsdiqi və vergi inzibatçılığının təkmilləşdirilməsi haqqında» sərəncamına uyğun olaraq, fərdi xidmətlər göstərən şəxslərin vergiləri ödəmə qaydalarının sadələşdirilməsi istiqamətində layihə hazırlanır. Nəzarət-kassa aparatlarının tətbiqinin mümkün olmadığı və nağd pul hesablaşmalarının aparıldığı həmin sahələrdə çalışan şəxslər üçün onların gəlirlərinə müvafiq aylıq sabit vergi forması müəyyən ediləcək. Fiziki şəxslər əldə etdikləri gəlirlərinin həcmindən asılı olmayaraq, aylıq vahid məbləğdə müəyyən edilən vergi ödəyəcəklər. Sabit verginin tətbiqi praktikası hazırda qüvvədə olan Vergi Məcəlləsində də mövcuddur («Avtonəqliyyat vasitələri ilə sərnişin və yük daşımalarını həyata keçirən şəxslər üçün «Fərqlənmə nişanı»nın alınması» və s.). Bu məqsədlə Vergi Məcəlləsinə təklif edilən dəyişiklikdə həmin kateqoriyaya aid olan fiziki şəxslərin siyahısının və aylıq sabit vergi məbləğlərinin müəyyən edilməsi əsas məsələlərdəndir.

Ə.Məmmədovun sözlərinə görə, yeniliklərin tətbiqi fərdi qaydada sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslərdə vergi inzibatçılığının yüngülləşdirilməsinə, vergi ödəmələrinin bəyannamə təqdim edilmədən sadələşdirilmiş qaydada yerinə yetirilməsinə imkan verəcək. Bu, həm də vergitutma bazasının genişləndirilməsində mühüm bir vasitə olacaq.

**Elbrus CƏFƏRLİ**

# Özəl sektora dəstəyin davam etdirilməsi prioritetdir

Bakıda səfərdə olan Avropa Yenidənqurma və İnkişaf Bankının (AYİB) Cənubi Qafqaz, Moldova və Belarus üzrə direktoru Bruno Balvanera ilə İqtisadiyyat Nazirliyində keçirilmiş görüşdə Azərbaycan və AYİB arasında əməkdaşlıq, ölkəmizdə aparılan iqtisadi islahatlar, iqtisadiyyatın prioritetləri barədə müzakirələr aparılıb, AYİB-in Azərbaycandakı daimi nümayəndəliyinin yeni rəhbəri İvana Duarte təqdim olunub.

Nazir Şahin Mustafayev yeni vəzifəyə təyin olunması münasibətilə İvana Duarteni təbrik edib, fəaliyyətinin Azərbaycan-AYİB əlaqələrinin inkişafına töhfə verəcəyinə əminliyini bildirib. Azərbaycan və AYİB arasında səmərəli və uzunmüddətli əməkdaşlığın olduğunu diqqətə çatdıran Ş.Mustafayev bankın ölkəmizdə özəl sektorun inkişafına göstərdiyi dəstəyi xüsusi vurğulayıb. Qeyd olunub ki, sahibkarlığın inkişafı, biznes və investisiya mühitinin daha da yaxşılaşdırılması sahəsində Azərbaycanda geniş islahatlar həyata keçirilir və özəl sektora dəstəyin davam etdirilməsi prioritetdir.

Görüşdə Cənub Qaz Dəhlizi layihəsi, bu yaxınlarda Ələtdə Azad Ticarət Zonasının yaradılması üçün Birləşmiş Ərəb Əmirlikləri şirkətinin məsləhətçi qismində prosesə cəlb edildiyi, ölkəmizin tranzit yükdaşımalarının artırılmasında maraqlı olduğu, Şimal-Cənub və Şərq-Qərb nəqliyyat dəhlizlərinin inkişafı istiqamətində tədbirlərin davam etdirildiyi bildirilib, AYİB-lə əməkdaşlığın inkişafı perspektivlərinə dair fikir mübadiləsi aparılıb, bankın infrastruktur layihələrinin reallaşdırılmasına və biznesin inkişafına dəstək göstərməsinin əhəmiyyəti vurğulanıb.

Bruno Balvanera Azərbaycanda sahibkarlığın inkişafı, gömrük, özəlləşdirmə və digər sahələrdə aparılan islahatlardan məmnunluğunu bildirib, bankın bu addımları dəstəklədiyini diqqətə çatdırıb. AYİB ilə Azərbaycan arasında uğurlu əməkdaşlığın həyata keçirildiyini, ölkə iqtisadiyyatının müxtəlif sahələrində bir sıra layihələrin icrasına maliyyə dəstəyi göstərildiyini qeyd edən B.Balvanera həyata keçirilən layihələrə və əməkdaşlıq imkanlarına dair fikirlərini bildirib.

AYİB-in Azərbaycandakı daimi nümayəndəliyinin yeni rəhbəri İvana Duarte bu vəzifədə fəaliyyətə başlamasının ölkədə iqtisadi sahədə ciddi islahatların aparıldığı dövrə təsadüf etdiyini qeyd edib və AYİB-Azərbaycan əməkdaşlığının inkişafı istiqamətində işlərin davam etdiriləcəyini vurğulayıb.

## BİR CÜMLƏ - BİR XƏBƏR

Azərbaycanın meyvə-tərəvəz məhsulları «X5 Retail Group» şirkəti ilə əməkdaşlıq çərçivəsində Rusiya bazarına birbaşa ixrac olunacaq.

Şəki şəhərində «Azərbaycan Respublikasında demoqrafik inkişaf: əhali məskunlaşmasının perspektivləri və regional problemləri» mövzusunda respublika elmi konfransı keçirilib.

İqtisadiyyat Nazirliyinin Sahibkarlığa Kömək Milli Fondu İmişli rayonunda prioritet hesab olunan sahələr üzrə sahibkarlardan investisiya layihələrinin qəbuluna başlayır.

Bu il ilk dəfə olaraq Azərbaycana Birləşmiş Ərəb Əmirliklərindən ötən illərlə müqayisədə 19 dəfə çox turist gəlib.

Bakıdan xarici ölkələrə yeni avtobus reysləri açılıb və bu istiqamətdə əlavə bir neçə reysin də təşkil olunması planlaşdırılır.

# «E-imza» sertifikat daşıyıcılarının yeni növü istifadəyə verilib

Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin Məlumat Hesablama Mərkəzi «Elektron imza» sertifikat daşıyıcılarının yeni bir növünü - USB tokenləri istifadəyə verib.

Sentyabrın 20-də Məlumat Hesablama Mərkəzində bununla bağlı yeni xidmətin təqdimatı keçirilib. Bildirilib ki, informasiya təhlükəsizliyi və istifadəçi rahatlığı üçün nəzərdə tutulmuş, etibarlılıq müddəti 3 il olan bu tokenlər həm də elektron xidmətlərdən daha rahat istifadə imkanı yaradacaq. İstənilən bank xidmətlərində, gömrük və vergi bəyannamələrinin doldurulmasında müştəri və eləcə də sahibkar öz mobil qurğusundan, yaxud kompüterindən istifadə etməklə USB tokenlərlə çox asanlıqla əməliyyat apara bilər.

Yeni istifadəyə verilən USB daşıyıcını Rabitə və Yüksək Texnologiyalar Nazirliyi Milli Sertifikat Xidmətləri Mərkəzindən və onlayn sifariş etmək olar. Daşıyıcı əhaliyə 18 manata, sahibkarlara 36 manata, hüquqi şəxslərə 72 manata, dövlət qulluqçularına isə 58 manata təklif olunur.

## ELAN

ASAN imza sertifikatının qüvvədə olma müddəti 3 il olduğundan və 2013-cü ilin avqust və növbəti aylarında alınmış sertifikatların etibarlılıq müddəti 2016-cı ilin avqust və növbəti aylarında bitəcəyindən, ASAN imza sertifikatının yenisini almaq üçün qüvvədə olan ASAN imzanız vasitəsilə www.asxm.gov.az/portal/login portalına daxil olub müvafiq ərizəni, müqaviləni və etibarnamələri imzaladıqdan sonra ASAN imza sim kartını dəyişərək vergi ödəyicilərinə xidmət mərkəzlərinə və ya ASAN xidmət mərkəzlərinə yaxınlaşa bilərsiniz.

ASAN imza ilə əlaqədar əlavə sualınız yaranarsa, Vergilər Nazirliyinin 195-1 Çağrı Mərkəzinə, rəsmi internet saytının «Sual-cavab» bölməsinə www.taxes.gov.az/www.taxes/faq/sual.html və www.asxm.gov.az internet ünvanına müraciət edə bilərsiniz.

**Vergilər Nazirliyinin Asan Sertifikat Xidmətləri Mərkəzi**

# Vergi islahatları ictimaiyyətin müzakirəsində...

*Ölkə başçısının «2016-cı ildə vergi sahəsində aparılacaq islahatların istiqamətləri»nin təsdiqi və vergi inzibatçılığının təkmilləşdirilməsi haqqında» 4 avqust 2016-cı il tarixli sərəncamı vergi sistemində yeni genişmiqyaslı islahatlar üçün mühüm baza yaradıb. İslahatların əhatə dairəsi, iqtisadi, sosial və ictimai əhəmiyyəti böyük olduğundan geniş ictimai müzakirələrə yol açıb. Müxtəlif ekspertlər, sahibkarlıq subyektlərinin nümayəndələri və iş adamları vergi sistemində gözlənilən dəyişikliklərə, habelə tətbiq edilməsi nəzərdə tutulan yeniliklərə dair öz fikirlərini bildirir, islahatların gözlənilən ictimai faydası barədə diskussiya aparırlar. «Vergilər» qəzeti də bu fikir mübadiləsinə və həyata keçiriləcək vergi islahatlarının ictimai müzakirəsinə töhfə vermək məqsədilə ixtisaslaşmış mütəxəssislərin, dünya təcrübəsinə bələd olan ekspertlərin, sahibkarların ictimai birliklərinin nümayəndələrinin və iş adamlarının mövqeyini işıqlandırır, onların vergi qanunvericiliyi və inzibatçılığı sahəsində təkliflərinə və şərhlərinə öz səhifələrində yer ayırır.*

## Müəyyən mallar, xidmətlər və ya işlər üzrə ƏDV-nin daha aşağı dərəcələrlə tətbiq edilməsi ilə bağlı dəyişikliklər mütərəqqi addımdır



Arif Quliyev
«Pricewaterhouse-Coopers Azərbaycan» şirkətinin vergi məsələləri üzrə direktoru

«2016-cı ildə vergi sahəsində aparılacaq islahatların istiqamətləri»nin təsdiqi və vergi inzibatçılığının təkmilləşdirilməsi haqqında» Azərbaycan Respublikası Prezidentinin sərəncamı bu ilin vergi qanunvericiliyinin daha da təkmilləşdirilməsi və beynəlxalq standartlara uyğunlaşdırılması baxımından həlledici il olacağından xəbər verir.

Sərəncamın icrası respublikada investisiya mühitinin yaxşılaşdırılması, vergi ödəyicilərinin vergi yükünün azaldılması və vergi inzibatçılığının yüngülləşdirilməsi istiqamətində yeniliklər edəcək. Bununla bağlı iki istiqamət - transfer qiymətləndirmə və əlavə dəyər vergisinin (ƏDV) tətbiqi ilə bağlı nəzərdə tutulan dəyişikliklərə toxunmağı zəruri hesab edirəm.

### Zəruri istehlak məhsullarına və səhiyyə xidmətlərinə nisbətən aşağı ƏDV dərəcəsinin tətbiqi son nəticədə istehlakçı maraqlarına xidmət edir

Müasir dövrdə beynəlxalq vergi arenasında transfer qiymətqoyma konsepsiyası transmilli korporasiyaların fəaliyyətinin artması ilə əlaqədar xeyli aktuallaşıb. Effektiv ümumi vergi dərəcəsini azaltmaq üçün transmilli korporasiyalar öz mənfəətlərini daha aşağı vergi dərəcələri olan yurisdiksiyalara köçürməyə meyillidirlər. Buna görə də həmin transmilli korporasiyaların nəzarət etdiyi şəxslər arasında mal təqdim edilməsi, xidmət göstərilməsi və ya iş görülməsi üzrə kommersiya əqdlərinin bağlanılması ilə mənfəətin düşünülmüş şəkildə bir vergi yurisdiksiyasından digərinə köçürülməsi riski vardır. Belə əqdlərdə süni olaraq qiymətin aşağı salınması və ya qaldırılması manipulyasiyalarını etməklə bir yurisdiksiyada vergiyə cəlb edilməli olan mənfəətin digər yurisdiksiyaya köçürülməsi və orada vergiyə cəlb olunması ehtimalı böyükdür.

Beynəlxalq təcrübədə transfer qiymətqoyma mexanizmi, bir qayda olaraq, aşağıdakı halları əhatə edir:

- Kommersiya əqdləri əlaqəli şəxslər arasında bağlanılır;
- Əqdlərin dəyəri ədalətli bazar dəyərindən kəskin şəkildə fərqlənir.

Əlaqəli olmayan şəxslər arasında bağlanılmış kommersiya əqdlərinin dəyəri isə ədalətli bazar dəyəri kimi qiymətləndirilir. Çünki bu şəxslər həmin əqdlərdə bir-birinə zidd iqtisadi maraqlardan çıxış edirlər. Məsələn, satıcı malı daha yuxarı qiymətə satmaq istəyir, alıcı isə daha aşağı qiymətə almaqda maraqlıdır.

Azərbaycanın mövcud qanunvericiliyində transfer qiymətləndirmə konsepsiyasına alternativ olan «bazar qiyməti» konsepsiyası Vergi Məcəlləsinin 14-cü maddəsində öz əksini tapıb. Bu maddəyə görə, vergilərin bazar qiyməti nəzərə alınmaqla hesablanması üçün əsas olan hallar daha genişdir və yalnız əlaqəli şəxslər arasındakı kommersiya əqdləri ilə məhdudlaşmır. Hazırkı qanunvericilik iqtisadi maraqları toqquşan tərəflərin bağladıqları kommersiya əqdlərinin vergi orqanı tərəfindən daim təftiş edilməsi riskinə yol açır.

Transfer qiymətləndirmə metodlarının tətbiqi hərtərəfli şəkildə tənzimlənmədiyindən, bazar qiymətinin qoyulması üçün vergi orqanına daha böyük səlahiyyətlər verildiyindən «oyun qaydaları» nə vergi orqanlarına, nə də biznes subyektlərinə tam aydındır. Ümid edirik ki, qanunvericiliyə dəyişikliklər edilən zaman transfer qiymətləndirmə mexanizminin əlaqəli şəxslər arasında tətbiq edilməsi üzrə beynəlxalq təcrübə nəzərə alınacaq, bu sahədə dəqiq müəyyənləşdirilmiş qaydalar, təlimatlar işləniləcək. Bu isə biznes mühitində qeyri-müəyyənliyin aradan qaldırılmasına və vergi ödəyicilərinin «vergi əməletməsi» xərclərinin azaldılmasına şərait yaradacaq.

İslahatların mühüm bir istiqaməti ƏDV-nin diferensiallaşdırılmış dərəcələrinin tətbiqidir. Hesab edirik ki, müəyyən mallar, xidmətlər və ya işlər üzrə ƏDV-nin daha aşağı dərəcələrlə tətbiq edilməsi ilə bağlı dəyişikliklər mütərəqqi addımdır. Zəruri istehlak məhsullarına və səhiyyə xidmətlərinə nisbətən aşağı ƏDV dərəcəsinin tətbiqi nəzərdən keçirilə bilər ki, bu da son nəticədə istehlakçı maraqlarına xidmət edir.

Sərəncamda pərakəndə ticarət fəaliyyəti ilə məşğul olan vergi ödəyicilərinin mallar təqdim etməsi üzrə ƏDV-nin vergi tutulan dəyərinin malların ümumi satış qiyməti ilə deyil, ticarət əlavəsi əsasında hesablanması da nəzərdə tutulur. Beynəlxalq təcrübədə qəbul edilmiş «ƏDV-nin neytrallığı» prinsipinin tam təmin edilməsi üzrə də işlərin görüləcəyinə əminik. Bu prinsipə görə, ƏDV-nin iqtisadi ödəyicisi son istehlakçı olduğundan, onun yükü biznesin üzərinə düşmür. Lakin mövcud qanunvericilikdə fərqli yanaşma mövcuddur: hesablanan ƏDV məbləğinə münasibətdə «kvazi-kassa metodu», ödənilən ƏDV-yə münasibətdə isə «hesablama metodu» tətbiq olunur. Beləliklə, hesablanan və ödənilən ƏDV əməliyyatlarına münasibətdə fərqli vergitutma vaxtlarının tətbiq olunması halı ƏDV-nin neytrallığının təmin edilməməsi, yəni vergi yükünün biznes üzərinə düşməsi və təsərrüfat subyektlərində nağd vəsait çatışmazlığı məsələlərini aktuallaşdırır.

Biznes sektorunun vergi islahatlarından gözləntiləri böyükdür və ümid edirik ki, islahatlar ümumilikdə biznes mühitinin daha da yaxşılaşdırılmasına və iqtisadi inkişafa təkan verəcəkdir.

## «ƏDV-nin neytrallığı» prinsipinin tam təmin edilməsi istiqamətində işlərin görüləcəyinə əminik



Vahid Hümbətov
«Asena» şirkətinin maliyyə məsələləri üzrə direktoru

Vergi islahatları sayəsində ölkədə iqtisadi fəallığın canlandırılması və sahibkarlıq subyektlərinə əlavə imkanların yaradılması yeni fəaliyyətə başlayan sahibkarlar üçün stimullaşdırıcı xarakterə malikdir. Sənəddə Azərbaycan biznes mühitinə müsbət təsir edəcək amillər, xarici investisiyaların cəlb edilməsi və biznesin stimullaşdırılması, investisiya mühitinin fəallaşdırılması və digər mühüm məsələlər nəzərə alınıb. Təqdir edilməli haldır ki, sərəncamın icrası ilə bağlı ictimaiyyətin, xüsusilə də biznes dairələrinin rəyləri dinlənilir.

Təklif edirik ki, fermerlərin kreditləşməyə çıxışı asanlaşsın, aqrar və emal sahələrinin sığorta sistemi həll olunsun. Kənd təsərrüfatında tətbiq olunan vergi güzəştləri mühüm əhəmiyyətə malikdir və hazırda bu sahədə güzəştlərin sərhədlərinin müəyyənləşdirilməsi təhlil olunur. Emal sənayesi ilə məşğul olan sahibkarların istəyi bu sahədə digər biznes fəaliyyəti növləri ilə müqayisədə aşağı ƏDV dərəcəsinin tətbiq olunmasıdır. Məsələn, kənd təsərrüfatında uçotun qaydaya salınması üçün 3%-lik ƏDV-nin tətbiqini məqsədəuyğun sayırıq.

### Vergi yoxlamaları hansısa əlavə vergi toplamaq tədbiri deyil, qanunla müəyyən edilmiş vergilərin yığılmasını təmin etmək və vergidən yayınmanın qarşısını almaq üçündür

Kiçik və orta sahibkarlıq subyektlərinin daha çox marağında olduqları əsas məsələ vergi yükünün optimallaşdırılması və ƏDV-nin diferensiallaşdırılmasıdır. Bu təklifin qəbul olunması milli istehsalın artmasına imkan yaradacaq. Xüsusilə də ticarət sektorunun nümayəndələri ilə kənd təsərrüfatı məhsulları istehsalçıları, emal-yeyinti mallarının tədarükçüləri arasında yaranan bir sıra problemlər həllini tapacaq.

İslahatların əsas istiqamətlərindən biri şəffaflığı artırmaq, maliyyə intizamını gücləndirməkdir. Vergi sistemində yoxlamaların azaldılması, həmçinin operativ yoxlama tədbirlərinin tam obyektiv formada aparılması ilə bağlı işlər münasibətlərin sivil müstəviyə qədəm qoymasında özünü göstərməkdədir. Bu tədbirlərin ən mədəni formada aparılması, xüsusilə kameral yoxlamalarda yeni yanaşmaların tətbiq olunması sahibkarlıq sinfi üçün müasir inzibatçılığa zəmin yaradacaq. İnzibatçılığın yüngülləşdirilməsi məqsədilə vergi orqanları tərəfindən keçirilən vergi yoxlamalarının, xüsusilə kameral vergi yoxlamalarının qanunla müəyyən edilmiş tələblərə əməl olunmaqla qısa müddətdə başa çatdırılması da sahibkarların mənafeyinə uyğundur.

Ümumilikdə inzibatçılıqla bağlı maddələrin böyük qismi həm vergi ödəyicilərinin hüquqlarının qorunmasına, həm də onların inzibati xərclərinin azalmasına yönəldilib. Bu isə sahibkarların xərclərinin azalması ilə bərabər, onların vaxt itkilərinin qarşısının alınması, sənədlərin tərtibatı zamanı yaranan uyğunsuzluqların aradan qaldırılması baxımından əhəmiyyətlidir.

İslahatların əsas strateji xətti sahibkarlığı inkişaf etdirmək üçün əlavə tədbirlər həyata keçirmək, investisiya mühitini təşviq etmək, qeyri-neft sektoruna dəstəyi artırmaqla yanaşı, vergitutma bazasının genişlənməsinə xidmət etməlidir. Hamı üçün aydındır ki, dövlət büdcəsinin əsas maliyyə mənbəyi vergi ödəmələridir. Vergilərin dinamikasına nəzər salsaq, hər il vergi yığımında artım müşahidə edə bilərik. Bununla belə, bəzi sahələrdə vergilərin könüllü ödənilməsində hələ də problemlər qalmaqdadır. Ona görə də sahibkarlar dövlətə dəstək vermək üçün ilk növbədə vergiləri könüllü ödəməli, intizamlı vergi ödəyicisi adını qazanmağa səy göstərməlidirlər. Vergi yoxlamaları hansısa əlavə vergi toplamaq tədbiri deyil, qanunla müəyyən edilmiş vergilərin yığılmasını təmin etmək və vergidən yayınmanın qarşısını almaq üçündür. Ona görə də ödəmələr könüllü olarsa, yoxlamalara da ehtiyac qalmaz.

Vergi risklərini minimuma endirmək və vergidən yayınma hallarının qarşısını almaq məqsədilə beynəlxalq təcrübədə geniş tətbiq olunan «Könüllü vergi açıqlaması» sisteminin tətbiqi əməletmənin artmasına müsbət təsir göstərəcək. Azərbaycanda bu təcrübədən yararlanmaqla vergi riskləri sahəsində mühüm dönüş yaradıla bilər.

*Hazırladı:* **Elbrus CƏFƏRLİ**

# Mərkəzi Bank növbəti dəfə uçot dərəcəsini artırdı

Mərkəzi Bankın (MB) İdarə Heyətinin qərarı ilə sentyabrın 14-dən uçot dərəcəsi 9,5%-dən 15%-dək, likvidlik əməliyyatları üzrə faiz dəhlizinin yuxarı həddi 15%-dən 18%-dək, aşağı həddi isə 4%-dən 12%-dək artırılıb. Qeyd edək ki, sonuncu dəfə uçot dərəcəsi 2016-cı il avqustun 8-də qaldırılmışdı (7%-dən 9,5%-dək). MB uçot dərəcəsinin artırılmasını ölkənin tədiyyə balansı ilə bağlı vəziyyətin və valyuta bazarındakı tendensiyaların nəzərə alınmaqla antiinflyasiya tədbirləri çərçivəsində qəbul etdiyini bəyan edib.

İqtisadçı Oqtay Məmmədovun fikrincə, uçot dərəcəsi ölkədəki cari iqtisadi vəziyyətə uyğun olaraq təyin edilir. İnflyasiya səviyyəsi yüksələndə MB də uçot dərəcəsini yüksəldir və əksinə, inflyasiya səviyyəsi endikdə uçot dərəcəsi də aşağı salınır. Azərbaycanda son aylar qiymət artımı indeksi yüksələrək psixoloji həddi - birrəqəmli göstəricini keçib. Rəsmi statistikaya əsasən, yanvar-avqust aylarında qiymətlərin orta illik artımı 10,8% təşkil edib. Ərzaq məhsullarının qiymətləri 12,2%, qeyri-ərzaq məhsullarının qiymətləri 15,6%, əhaliyə göstərilən ödənişli xidmətlərin qiymətləri 4,9% bahalaşıb. Təkcə avqust ayında 1 faizə yaxın inflyasiya olub və Dövlət Statistika Komitəsinin məlumatına görə, ötən ay ərzində düyünün, unun, çörəyin, qarabaşağın, mal, qoyun və toyuq ətinin, süd məhsullarının, yumurta, kərə və bitki yağlarının, şəkər və şəkər tozunun, tütün məmulatlarının qiymətlərində bahalaşma qeydə alınıb. Qeyri-ərzaq məhsullarının, əhaliyə göstərilən ödənişli xidmətlərin, təhsil haqlarının da artımı müşahidə edilməkdədir.

Hökumətin rəsmi proqnozlarına əsasən, 2016-cı il üçün orta illik inflyasiya 12,1% səviyyəsində olacaq. Beynəlxalq institutlar, Valyuta Fondu isə bu rəqəmin bir qədər artacağını proqnozlaşdırırlar.

İqtisadçının sözlərinə görə, inflyasiyanın artımı ilə yanaşı, son aylarda ölkənin maliyyə-kredit sistemində də müxtəlif tendensiyalar güclənib. Milli valyutanın devalvasiyasından sonra bank sektoruna təzyiqlərin artması və bankların maliyyə problemləri ilə üzləşməsi, valyuta əməliyyatlarında gərginliklər, pul kütləsinin azalması və digər amillər uçot dərəcəsinin artırılmasını zəruri edir. Bu artımın kredit bazarına və yığımlara təsirinə gəlincə, demək olar, heç bir ciddi dəyişiklik olmayacaq. Çünki uçot dərəcəsi 3-3,5 % olduğu dövrlərdə belə, banklar istehlak kreditlərini yüksək faizlə verirdilər. Son 5 ildə uçot dərəcələri bir neçə dəfə dəyişsə də bankların kredit faizləri nəinki dəyişməyib, əksinə, yüksəlib. İndiyədək uçot dərəcəsinin aşağı və ya yuxarı olmasından asılı olmayaraq, uçot dərəcəsi ilə kredit faizləri arasındakı fərq 12-13 dəfə təşkil edib. Əslində isə bankların istehlak kreditləri dərəcələri ilə uçot tarifi arasındakı fərqin 2 dəfə olması normal kredit tənzimləməsi həyata keçirməyə imkan verir. Bu onu göstərir ki, Azərbaycanda banklar bazar münasibətlərinə uyğun kredit siyasəti həyata keçirmirlər.




Bəzi iqtisadçılar isə bu qərarın kreditlərin bahalaşmasına səbəb olacağı qənaətindədir. İqtisadçı Rəşad Əliyevin fikrincə, uçot dərəcəsinin qaldırılması daşınmaz əmlak bazarına təsir edəcək və ipoteka kreditlərinin faizləri artacaq. Güzəştli ipoteka kreditləri dövlət büdcəsindən maliyyələşdirildiyi üçün faizlər uçot dərəcəsindən az asılı olurdu. Ancaq kommersiya banklarının özlərinin verdiyi ipoteka kreditlərinin faizləri uçot dərəcələri ilə birbaşa bağlıdır. Uçot dərəcələrinin artırılması artıq İpoteka Fondunun ucuz pul vəsaitlərini cəlb etməsinə maneə yaradacaq. Öz ipoteka kreditləri üzrə faiz dərəcələrini mövcud 8 faizdən aşağı salmağı planlaşdıran bankların da bundan sonra imkanları məhdudlaşacaq.

İqtisadçı Samir Əliyev hesab edir ki, uçot dərəcəsinin artırılması milli valyutanın bahalaşmasına yönəlmiş addımlardan biridir. Çünki son günlərdə valyuta bazarında dollara olan tələb artdığı üçün milli valyutanın ucuzlaşması baş verirdi, bu isə inflyasiyanı gücləndirirdi. Ölkənin əsas malları, qeyri-neft məhsulları xaricdən gətirilir. Bu isə dollar-manat münasibətlərinə güclü təsir edir. Hazırda Mərkəzi Bank uçot dərəcəsini artırmaqla, həmçinin, pul kütləsini çoxaltmağı da düşünür. Bu siyasətin müsbət tərəfləri də var: uçot dərəcələrinin qaldırılması investisiya cəlbediciliyini artırır.

**Elbrus CƏFƏRLİ**

# Rusiya jurnalistləri üçün press-tur



«Şahdağ» Turizm Mərkəzinə Rusiyanın aparıcı mətbuat orqanlarının təmsilçilərinin iştirak etdiyi bir günlük press-tur təşkil edilib. «Şahdağ» Turizm Mərkəzinin yalnız xizək kurortu kimi deyil, eyni zamanda ilin bütün mövsümlərində fəaliyyət göstərən istirahət mərkəzi kimi imkanlarının tanıdılması məqsədilə həyata keçirilən press-turda travel.ru, lenta.ru, businesstraveller.com, geo.ru kimi veb portalların, eləcə də «Forbes», «Aeroflot» və «Uralskiye avialinii» jurnallarının nümayəndələri iştirak edib.

Turizm Mərkəzindən bildirilib ki, Mədəniyyət və Turizm Nazirliyinin Rusiyadakı rəsmi nümayəndəliyi «Tour A Vent» şirkəti tərəfindən təşkil olunmuş press-tur zamanı qonaqlar mərkəzdə mövcud olan infrastrukturla yanaşı, yay mövsümü ərzində təklif olunan əyləncələrlə tanış olub, burada fəaliyyət göstərən regionun ən böyük spa mərkəzinin xidmətlərindən istifadə edib, kanat yolları və qondola vasitəsilə Şahdağ yamaclarını yüksəklikdən seyr ediblər.

Qeyd edək ki, Mədəniyyət və Turizm Nazirliyinin tabeliyində olan «Şahdağ» Turizm Mərkəzi artıq regional səviyyədə kifayət qədər tanınır. Belə ki, Rusiyanın ən məşhur turizm saytlarından biri olan «turstat.com»un araşdırmasına əsasən «Şahdağ» Turizm Mərkəzi MDB məkanında yay turizmi və dağ gəzintilərinin əlverişli olduğu top 10 turizm mərkəzi arasında ilk üçlükdə qərarlaşıb. Bundan əlavə, Rusiyanın tanınmış «forbes.ru» saytı rusiyalı turistlərin Avropada aktiv yay istirahəti üçün üstünlük verdiyi dağ-xizək kurortlarının reytinqini tərtib edərkən «Şahdağ» Turizm Mərkəzi yenidən seçilən istirahət mərkəzləri arasında ilk onluqda yer alıb.

# Azərbaycan turizmi Yaponiya televiziyasında

Yaponiyanın «World İnverstors TV» internet televiziyasında Azərbaycanın «JATA Tourizm EXPO Japan - 2016» beynəlxalq turizm sərgisində iştirakı barədə xüsusi veriliş yayımlanıb.

Əvvəlcə verilişin aparıcıları və sərginin təşkilatçıları bu beynəlxalq sərginin əhəmiyyəti, burada iştirak edən ölkələr barədə məlumat veriblər. Qeyd olunub ki, dünyanın ən böyük turizm sərgilərindən hesab olunan «JATA-2016» sentyabrın 22-dən 25-dək Yaponiya paytaxtının möhtəşəm «Tokyo Big Sight» sərgi salonunda keçiriləcək. Budəfəki sərgidə 170-dən çox ölkədən turizm, səyahət və asudə vaxtın təşkili sahəsində fəaliyyət göstərən 700-dən çox şirkətin iştirakı gözlənilir.

Qeyd olunub ki, sərgidə əsas mövzulardan biri Qara Dəniz hövzəsi ölkələrinə həsr ediləcək. Yapon turistləri üçün Qara Dəniz hövzəsi ölkələrinin əksəriyyəti hələ də bir çox hallarda naməlum istiqamət hesab olunur. Bununla əlaqədar olaraq JATA növbəti sərgi zamanı Qara Dəniz hövzəsi ölkələrindən bəzilərini təyinat nöqtəsi seçib və bu ölkələri təbliğ etməyi təklif edir. Bu ölkələrə Bolqarıstan, Gürcüstan, Moldova, Rumıniya, Ukrayna ilə yanaşı, Azərbaycan da daxil edilib. Azərbaycan haqda məlumat verən verilişin iştirakçıları bildiriblər ki, ölkəmiz son illər sürətlə inkişaf edərək möhtəşəm turizm infrastrukturu yaratmağa nail olub. Təbii əsrarəngizliyi, qədim tarixi abidələri, zəngin musiqi və mətbəx mədəniyyəti ilə seçilən Azərbaycanda hazırda müasir və rahat otellər şəbəkəsi yaradılıb, yeni yollar çəkilib.

Vurğulanıb ki, sərgi çərçivəsində keçiriləcək seminarlardan biri ümumilikdə Azərbaycana həsr olunacaq. «Cross Border Club» şirkətinin prezidenti Kazuyasu İşida bu tədbirdə ölkəmizin turizm potensialı barədə ətraflı məlumat verəcək. Eyni zamanda, sərgiyə gələn ziyarətçilərə Azərbaycanın turizm potensialı barədə ingilis və yapon dillərində müxtəlif reklam-çap məhsulları təqdim olunacaq. Bütün bunlar Yaponiyanın və ətraf ölkələrin turizm həvəskarlarının Azərbaycan haqqında daha ətraflı məlumatlar əldə etməsinə imkan yaratmış olacaq.

# Bakıda «İran–Proje 2016» sərgisi keçirilir

Sentyabrın 19-da Bakı Ekspo Mərkəzində «İran–Proje 2016» ikinci ixtisaslaşmış neft-qaz, əczaçılıq, inşaat, texnika və avtomobil sahəsi üzrə sərgi keçirilir. Sərginin açılış mərasimində çıxış edən İran İslam Respublikasının Azərbaycandakı səfiri Möhsün Pakayin belə sərgilərin artıq ənənəvi hal aldığını və Azərbaycanla İran arasında siyasi-iqtisadi əlaqələrin inkişafına layiqli töhfə verdiyini vurğulayıb. Səfir iki ölkə arasında ticarət dövriyyəsinin də ilbəil artdığını diqqətə çatdırıb. Qeyd olunub ki, ilin sonunadək iqtisadi əlaqələrin daha da artması gözlənilir.

İqtisadiyyat nazirinin müavini Sahil Babayev Azərbaycanla İran arasında münasibətlərin artıq yeni mərhələyə keçdiyini bildirib. Onun sözlərinə görə, respublikada İran kapitalı ilə 450-yə yaxın müəssisə çalışır.

Qeyd olunub ki, ölkələrimiz arasında olan tarixi, mədəni, dini əlaqələr artıq iqtisadi sahədə öz bəhrəsini verir. Yalnız bu ilin 7 ayında Azərbaycanla İran arasında ticarət dövriyyəsində 70 faiz artım olub. Təqribən 2000 kvadratmetr ərazini əhatə edən sərgidə İranın 50-dən çox tanınmış şirkəti öz məhsullarını nümayiş etdirir.

Sərgidə həmçinin İranın turizm, kənd təsərrüfatı, bank və sığorta sahəsi ilə də tanış olmaq mümkündür.

Sərgi çərçivəsində Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun (AZPROMO) dəstəyi ilə Azərbaycan-İran biznes forumu da təşkil olunacaq.




## vergi təqvimi

| SENTYABR | | | | | | |
|---|---|---|---|---|---|---|
| I | II | III | IV | V | VI | VII |
| | | | 1 | 2 | 3 | 4 |
| 5 | 6 | 7 | 8 | 9 | 10 | 11 |
| 12 | 13 | 14 | 15 | 16 | 17 | 18 |
| 19 | 20 | 21 | 22 | 23 | 24 | 25 |
| 26 | 27 | 28 | 29 | 30 | | |

*Qeyd: Verginin ödənilmə və bəyannamənin (o cümlədən arayışın) verilmə müddətinin sonuncu günü təqvimdə yaşıl rənglə qeyd edilmişdir. Həmin gün istirahət və ya bayram gününə düşdüyü halda, növbəti iş gününə keçirilir.*

**Ödənilən vergi:**

20 sentyabr - «(1-1)», «(1-2)», «3», «4», «7», «8», «(9-1)», «10.1» və «10.3».

**«(1-1)» - Gəlir vergisi (xüsusi notariuslar üzrə):** Xüsusi notariusların gəlir vergisi üzrə hesabat dövrü rübdür.
Xüsusi notariuslar tərəfindən hər ay ərzində aparılan notariat hərəkətlərinə, habelə notariat hərəkətləri ilə əlaqədar göstərilən xidmətlərə görə alınan haqlardan (xərclər nəzərə alınmadan) 10 faiz dərəcə ilə gəlir vergisi hesablanmalı, hesablanmış vergi məbləği növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödənilməlidir.
**(«1-2») - Gəlir vergisi (İdman-mərc oyunları üzrə):** İdman-mərc oyunlarından uduşlar əldə edən şəxsdən ödəmə mənbəyində tutulan gəlir vergisi üzrə hesabat dövrü aydır. İdman-mərc oyunlarından uduşlar əldə edən şəxsə ödəmələr verən şəxslər ödəmə mənbəyində vergini tutmağa, hesabat ayından sonrakı ayın 20-dən gec olmayaraq hesablanmış vergini dövlət büdcəsinə köçürməyə və «İdman-mərc oyunlarından uduşlar əldə edən şəxsdən ödəmə mənbəyində tutulan gəlir vergisinin bəyannaməsi»ni vergi orqanına verməyə borcludurlar.
**«3» - Əlavə dəyər vergisi:** ƏDV üzrə hesabat dövrü təqvim ayı sayılır. ƏDV ödəyən vergi ödəyicisi ƏDV-nin bəyannaməsini hər hesabat dövrü üçün, hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq, qeydiyyatda olduğu vergi orqanına verir və vergini dövlət büdcəsinə ödəyir.
**«4» - Aksizlər:** Aksizlər üzrə hesabat dövrü təqvim ayıdır. Aksizli mallar istehsal edildikdə hər hesabat dövrü üçün vergi tutulan əməliyyatlar üzrə aksizlər hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödənilməli və vergi orqanına bəyannamə verilməlidir.
**«7» - Yol vergisi** üçün hesabat dövrü təqvim ayı sayılır. Azərbaycan Respublikasının ərazisində avtomobil benzininin, dizel yanacağının və maye qazın istehsalı ilə məşğul olan fiziki və hüquqi şəxslər yol vergisini aylıq olaraq hesablayır və hesabat ayından sonrakı ayın 20-dən gec olmayaraq «Yol vergisinin bəyannaməsi»ni vergi orqanına təqdim etməklə vergini dövlət büdcəsinə ödəyirlər.
**«8» - Mədən vergisi:** Mədən vergisi üzrə hesabat dövrü təqvim ayı sayılır. Mədən vergisinin ödəyicisi hesabat ayı üçün faydalı qazıntıların çıxarıldığı aydan sonrakı ayın 20-dən gec olmayaraq vergini ödəyir və bəyannamə verir. Yerli əhəmiyyətli tikinti materialları üzrə mədən vergisi yerli (bələdiyyə) büdcəyə ödənilir və bələdiyyələrə mədən vergisinin bəyannaməsi verilir. Yerli əhəmiyyətli tikinti materiallarına kərpic-kirəmit gilləri, tikinti qumları, çınqıl xammalı aid edilir.
**(«9-1») - Sadələşdirilmiş vergi (Yaşayış və qeyri-yaşayış sahələrinin təqdim edilməsi üzrə):** Yaşayış və qeyri-yaşayış sahələrinin təqdim edilməsi üzrə müqavilələri təsdiq edən notarius sadələşdirilmiş vergini hesablayaraq 1 (bir) bank günü ərzində dövlət büdcəsinə ödəməyə və hesabat ayından sonrakı ayın 20-dən gec olmayaraq «Yaşayış və qeyri-yaşayış sahələrini təqdim edən şəxslərdən notariuslar tərəfindən ödəmə mənbəyində tutulan sadələşdirilmiş vergi bəyannaməsi»ni vergi orqanına verməyə borcludurlar.
**«10.1» - Muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulan vergi:** Muzdla işləyən fiziki şəxslərə ödəmələr verən hüquqi şəxslər və fərdi sahibkarlar muzdla işləyən fiziki şəxslərin hesablanmış aylıq gəlirinə gəlir vergisini hesablamalı və hesablanmış məbləği növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməlidirlər.
**«10.3» - Sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə ödəmə mənbəyində tutulan vergi:** Həyatın yığım sığortası və pensiya sığortası üzrə bağlanmış sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə sığorta haqları ödəyən sığortaçılar fiziki şəxslərin hesablanmış aylıq gəlirinə gəlir vergisi hesablamalı və hesablanmış vergini növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməlidirlər.


## ELAN

Hörmətli vergi ödəyicisi!

Fəaliyyətiniz zamanı vergi orqanı əməkdaşları tərəfindən yol verilən korrupsiya və digər hüquqpozma halları ilə rastlaşdıqda, aşağıdakı imkanlardan istifadə etməklə, vergi orqanına müraciət edə bilərsiniz:

* Vergilər Nazirliyinin rəsmi internet səhifəsində (www.taxes.gov.az) «Onlayn müraciətlər» bölməsinin «Vergi orqanı əməkdaşlarının fəaliyyətində korrupsiya və digər hüquqpozma halları barədə məlumat ver» alt bölməsinə;

* Vergilər Nazirliyinin poçt ünvanına və ya Daxili təhlükəsizlik baş idarəsinə üzərində «MƏXFİ - Daxili təhlükəsizlik baş idarəsinə» qeydi olan məktubları göndərməklə.
Ünvan: AZ1073, Bakı şəhəri, Landau küçəsi 16, Vergilər Nazirliyi;

* Daxili təhlükəsizlik baş idarəsinə gəlməklə və məlumatı şəxsən (şəxsiyyətinizi təsdiq edən sənədlə) təqdim etməklə.
Ünvan: AZ1073, Bakı şəhəri, Landau küçəsi 16, Vergilər Nazirliyi, Daxili təhlükəsizlik baş idarəsi;

* Vergilər Nazirliyinin Çağrı Mərkəzinə (195-1)

Vergilər Nazirliyi

beynəlxalq panoram

# Misirdə də ƏDV tətbiq ediləcək

Ölkənin qanunvericilik orqanı 13 faizlik əlavə dəyər vergisinin tutulması barədə qərar vermişdir. 2017-2018-ci illərdə isə bu verginin dərəcəsini 14 faizə qaldırmaq planlaşdırılır. May ayında ölkənin maliyyə naziri bəyan etmişdi ki, 52 növ mal və xidmətlər ƏDV-dən azad ediləcək. Bu siyahıya əsas qida məhsullarının əksəriyyəti daxildir. Turizm üzrə ixtisaslaşmış şirkətlər, eləcə də mehmanxana və restoranlar da ƏDV-yə cəlb edilməyəcəklər.

Təbii resurslar sektorunda çalışan bir sıra şirkətlər də ƏDV-dən azad ediləcəklər, lakin həmin sektorların qismən vergiyə cəlb olunacaqları barədə əlavə açıqlamaların veriləcəyi gözlənilir. Təhsil, elmi tədqiqatlar və dini qurumlar üçün də güzəştlər tətbiq olunacaq.

ƏDV-nin çoxdan gözlənilən tətbiqi ölkənin büdcə kəsirinin (bu il ümumi daxili məhsulun 11,5 faizini təşkil edəcəyi gözlənilir) əsaslı şəkildə aradan qaldırılması üçün əsas mənbə hesab edilir.

# Belarusda beynəlxalq şirkətlərin e-xidmətlərindən ƏDV tutulacaq

Maliyyə nazirinin müavini Yuri Seliverstov bildirmişdir ki, ölkədə mobil proqram təminatlarının, onlayn oyunların və filmlərin satışından vergi tutmaq planlaşdırılır. Belarusdan kənarda yerləşən və bu ölkənin ərazisində fəaliyyət göstərən beynəlxalq şirkətlərin elektron xidmətlərindən ƏDV tutulacaq.

Gözlənildiyinə görə, ƏDV tutulacaq elektron xidmətlərə filmlərə baxmaq, musiqi dinləmək, məlumat bazasından istifadə etmək, oyun oynamaq və proqram təminatından istifadə etmək imkanının əldə edilməsi, eləcə də proqram təminatının yenilənməsi aid ediləcək. Verginin 2018-ci ildən qüvvəyə minəcəyi nəzərdə tutulur. ƏDV-nin hansı metodika üzrə tutulacağı hələ dəqiq məlum deyil, bu məsələ üzərində iş aparmaq üçün mütəxəssislərə tapşırıq verilib. Hökumət rəsmisinin sözlərinə görə, hazırda yalnız ilkin yanaşmalar müəyyənləşdirilmişdir: «Biz bu normanı Vergi Məcəlləsinə 2017-ci ildə daxil etməyi, vergini isə 2018-ci ildən tutmağı təklif edirik ki, hazırlıq mərhələsində hamı oyunun qaydalarını başa düşsün», - nazir müavini bildirmişdir.

Seliverstov onu da xatırlatmışdır ki, elektron xidmətlər Avropa İttifaqında 2015-ci ildən vergiyə cəlb olunub, 2017-ci ildən isə bu xidmətlərə Rusiya da ƏDV tətbiq edəcək.

# 60 ildən sonra...

Bir vaxtlar «Azadlıq adası» kimi məşhur olan Kuba Respublikasının dövlət sektorunda çalışan 1,5 milyon nəfərdən artıq sakini 1959-cu ildə baş vermiş inqilabdan sonra ilk dəfə olaraq sosial müdafiə haqları ödəyəcəklər. Dövlət sənaye sektorunda çalışan vətəndaşlar 500 pesodan (1 peso = 0,0.4 ABŞ $) artıq aylıq gəlir üçün 5%-lik sosial müdafiə haqqı, 2500 pesodan artıq aylıq gəlir üçünsə 3-5%-lik gəlir vergisi ödəyəcəklər.

Kubada vergiləri, o cümlədən gəlir vergisini ilk dəfə kiçik biznes təmsilçiləri, mədəniyyət işçiləri və xarici şirkətlərdə çalışanlar ödəməyə başlamışlar. Son vaxtlar vergi ödəyicilərinin bu kateqoriyasına yüz minlərlə fermer və yarım milyon fərdi fəaliyyətlə məşğul olan kubalılar da salınmışdır.

Qeyd edək ki, Kubanın 5 milyon işləyən əhalisinin 80%-i dövlət müəssisə və təşkilatlarında çalışanlardır. Son vaxtlara qədər səhiyyə və təhsil sahələrində işləyən kubalılar dövlətə heç bir vergi ödəmirdilər.

# Macarıstan işəgötürənlərin sosial təminat haqqının azaldılması məsələsinə baxacaq



Hökumət tərəfindən bildirilmişdir ki, işəgötürənlərin işçilərin sosial təminatı üçün ödədikləri haqqın azaldılması məsələsinə baxılsa da, maliyyə imkanlarının məhdudluğu səbəbindən, bu proses hələ bir müddət ləngiyə bilər.

Yeni yaradılmış kabinetin avqustun 16-da keçirilmiş ilk iclası ərəfəsində milli iqtisadiyyatın planlaşdırılmasına məsul olan nazirliyin nümayəndəsi bildirmişdi ki, məşğulluqla bağlı bir sıra məsələləri əməkhaqqından tutulan vergiləri azaltmaq sayəsində həll etmək mümkün ola bilərdi. Bununla belə, sosial sığorta fonduna ödənilən haqlar həm səhiyyə, həm də pensiya təminatı sahələrini əhatə etdiyinə görə, hökumətin «manevr etmək» imkanları məhduddur.

«Səhiyyə və sosial təminat sahələrində tarazlığın yaradılmasına bir neçə il ərzində gərgin zəhmət sərf olunmuşdur. İndi xərclər gəlirlərdən artıq deyil və çox çətinliklə əldə edilmiş bu tarazlıq təhlükə altına salınmamalıdır», - nazirliyin məlumatında bildirilmişdir. Məlumatda o da qeyd edilmişdir ki, nazirlik «sosial haqların azaldılması imkanlarını və müddətlərini nəzərdən keçirir».

Məlumat üçün bildirək ki, sosial haqların məbləği Avropa üzrə Macarıstanda ən yüksək həddədir. Hazırda işəgötürənlər işçinin əməkhaqqının 27%-i həcmində sosial haqq ödəyirlər. Onu da nəzərinizə çatdıraq ki, bu rəqəm hazırda Azərbaycanda 22% təşkil edir.

# Almaniyada gecə klubuna mədəniyyət ocağı statusu verildi

Ölkədə əyləncə və istirahət mərkəzləri, o cümlədən gecə klubları 19 faizlik vergi ödəyirlər. Buna baxmayaraq, məhkəmə «Berghain» texno klubuna fərqli status verərək onu mədəniyyət müəssisəsi kimi tanımışdır. Berlin və Brandenburq şəhərlərinin maliyyə məhkəmələrinin qərarı ilə «Berghain» texno klubu mədəniyyət müəssisələrinə aid edilmişdir. Bu qərar regional vergi müfəttişlikləri ilə klub arasında sürən uzun məhkəmə mübahisələrindən sonra qəbul edilmişdir. Vergi orqanı əməkdaşlarının mövqeyinə görə, qonaqları içki içən, rəqs edib şənlənən müəssisələr dövlət xəzinəsinə restoranlar kimi 19% dərəcə üzrə vergi ödəməlidirlər. Lakin «Berghain»in rəhbərliyi məhkəmədə sübut edə bilmişdir ki, bu klub mədəniyyət ocağıdır, ölkədəki filarmoniyalar və muzeylər kimi güzəştli dərəcə ilə 7% vergi ödəməlidir.

# Yunanıstanın hava limanlarında sərnişinlərdən tutulan vergi artırılacaq

Ölkənin hava limanlarındakı infrastrukturu maliyyələşdirmək məqsədilə sərnişinlərdən tutulan verginin məbləği ilkin mərhələdə 13 avroya qədər artırılacaq. Yunanıstandakı 14 hava limanından 11-nin modernləşdirilməsini Almaniyaya məxsus operator şirkət - «Fraport» həyata keçirəcək. Modernləşdirmə üçün investisiyaların isə dörd il ərzində hər bir sərnişindən tutulacaq vergi hesabına yatırılması nəzərdə tutulmuşdur. Son ehtimallara görə, bu verginin məbləği gələn ildən 18 avroya qədər artırılacağı istisna deyil. «Sərnişinlərdən tutulan verginin 12,7 avrodan 13 avroya artırılması yeni yığım tətbiq etməklə müqayisədə daha düzgün addımdır. Bu, turistlərin istirahət üçün xərclədikləri məbləğlə müqayisədə çox kiçik rəqəmdir, - turizm şirkətlərindən birinin icraçı direktoru Kris Rayt bildirmişdir. - Düşünürəm ki, bizim müştərilərimiz onlardan yığılan əlavə vəsaitlərin həqiqətən də Yunanıstanın hava limanlarındakı infrastrukturun təkmilləşdirilməsinə xərclənməsinə ciddi etiraz eləməzlər».

## Xəbər lenti

**Beynəlxalq Valyuta Fondu** Qvatemala hökumətinə təkidlə vergiləri artırmağı tövsiyə edir. Sosial səhiyyə və infrastruktura çəkilən xərclərin qarşılana bilməsi üçün fiskal gəlirlərin ÜDM-in ən azı 15%-i nisbətinə çatdırılması tələb olunur.

**Uels** hökuməti 800 ildən sonra ilk dəfə 2018-ci ildə torpaq və əmlak vergisi tətbiq etməyi planlaşdırır. Bu vergi hazırda qüvvədə olan gerb vergisini əvəz edəcək.

**Sloveniya** hökuməti 2017-ci ildə korporativ verginin dərəcəsini 2% artırmağı planlaşdırır. Bunun əvəzində isə orta qazanclı vergi ödəyicilərindən tutulan gəlir vergisi azaldılacaq.

**Fransa**da şəkər vergisinin artırılması məsələsi yenidən gündəliyə gətirilib. Bu verginin tətbiqində məqsəd yüksək kalorili qidalara tələbatı azaltmaq, son vaxtlar ciddi şəkildə aktuallaşmış piylənmə probleminin qarşısını almaqdır. Şəkər vergisinin tətbiqi keçmiş sovet məkanında - Estoniyada da müzakirə edilməkdədir.

**İtaliya**nın Dövlət Vergi Xidməti tərəfindən təqdim edilmiş yeni normativ sənədə əsasən, elektron pul - bitkoin ənənəvi valyuta kimi müəyyənləşdirilmişdir və bununla da bitkoin əməliyyatlarının vergiyə cəlb olunması nəzərdə tutulur.

**İrlandiya**nın maliyyə naziri Maykl Nunan bildirmişdir ki, gələn ilin büdcəsində vergilərin cüzi artımı nəzərdə tutulur. Hökumət əldə olunan vəsaitlərin əhəmiyyətli hissəsinin kommunal səhiyyə yönəldiləcəyini bəyan etmişdir.

**Yeni Zelandiya**da elektrik enerjisi ilə işləyən yüngül minik avtomobilləri yol vergisindən azad ediləcək. Hazırda avtomobil sahibləri ildə təxminən 438 ABŞ dolları məbləğində yol vergisi ödəyirlər.

krossvord



**Yuxarıdan aşağı:** 1.Üstü tikanlı, yarpaqsız, enli, ətli gövdəsi olan subtropik bitki; 2.Hinduizm dini fəlsəfəsində bütün canlıların ali məqsədini ifadə edən anlayışdır, həmçinin buddizmdə də mühüm rola malikdir; 3.Osmanlı dövlətində sultanın şəxsi imzası və möhürü kimi istifadə olunan ərəb hərfləri ilə yazılmış xəttatlıq nişanəsi; 4.Çində şəhər; 5.Kanadada ən böyük şəhər; 6.Obyektlərin yerinin təyin edilməsi, koordinatlarının və hərəkət göstəricilərinin ölçülməsi üçün elektromaqnit dalğalarının əks olunması və şüalanması prinsipi ilə işləyən cihaz; 7.Birisinin haqqında pis arzu, nifrin, bəddua; 13.Azərbaycanın ən hündür körpüsü. Quba rayonunun eyniadlı kəndinin adını daşıyır; 15.Ukraynada yaşayış məntəqəsi (qəsəbə); 16.Türk mifologiyasında dağ tanrısı; 17.Rus xalq ədəbiyyatında folklor janrı, dastan; 18.Qədim yunan şairi və epos söyləyən (rapsod), didaktik və genealoji epos cərəyanının nümayəndəsi; 20.Kişi adı. Ərəb dilində kral, padşah, hökmdar deməkdir; 21.Müdri - İsmayıllı rayonunda kənd. **Soldan sağa:** 1.Mövcud material və resurslardan istifadə edərək son məhsulun layihələndirilməsi ilə məşğul olan mühəndislik ixtisası; 8.Altay, Türkiyə, Türkmənistan, Azərbaycan türklərinin əfsanə və dastanlarında yer alan yarı mistik xalq qəhrəmanı; 9.Sloveniyanın futbol klubu; 10.Rusiyada çay; 11.Biləsuvar rayonunda kənd; 12.Məşhur bolqar görücüsü; 14.Rusiyanın Avropa hissəsində çay. Həmçinin avtomobil markası; 19.Göygöl rayonunda kənd; 21.Almaniyada şəhər; 22.Uzunmüddətli daimi müdafiə üçün hazırlanmış, daimi qarnizonu, silah ehtiyatları olan və müstəqil idarə olunan strateji əhəmiyyətli məntəqə; 23.Böyük İran-fars şairi. «Şahnamə»nin müəllifi; 24.İnternetdə istifadəçilərin bloq, veb-forumlarda, çatlarda istifadə etdikləri şərti ad; 25.Musiqi aləti, fortepianonun əcdadı hesab edilir.



*Bir çox türk xalqlarının əfsanə və dastanlarında yer alan yarı mistik xalq qəhrəmanı*

Tərtib etdi: Rafael

*Qəzetimizin ötən nömrəsində getmiş krossvordun cavabları:*

**Yuxarıdan aşağı:** 1.Seqvey; 2.Novator; 3.İflas; 4.Alyans; 5.İnkasso; 6.Maqma; 7.Korçma; 13.Fuko *(Jan Bernar Leon)*; 15.Admiral; 16.Avrora; 17.Manevr; 18.Şəmkir; 20.Rasim *(Ocaqov)*; 21.Xloya. **Soldan sağa:** 1.Sindikalizm; 8.Qeveliy; 9.Kaqor; 10.Estos; 11.Nistaqm; 12.Qrafa; 14.Zoğal; 19.Vorskla; 21.Xəmsə; 22.Omsk; 23.Velotrek; 24.Aim; 25.Gürzallar.

Vergilər
SOSİAL-İQTİSADİ HƏFTƏLİK
12 fevral 2000-ci ildən çıxır

**Təsisçi:** Azərbaycan Respublikası Vergilər Nazirliyi

**Baş redaktor:** Anar Əliyev *anar.eliyev@taxes.gov.az*

**Baş redaktor müavini:** Məti Osmanoğlu *redaksiya@vergiler.az*

Qeydiyyat şəhadətnaməsi № R148
VÖEN: 1300327481
IBAN: AZ46ATAZ01200012258000138090
Atabank ASC. Kod: 507581
VÖEN: 9900006651

M/h: AZ50NABZ01350100000000032944
S.W.I.F.T. BIK ATAZAZ22

**Ünvan:** AZ 1141, Bakı ş., Əbdürrəhim bəy Haqverdiyev küç., 60

**Telefon:** 012 403 87 89, 012 403 87 95 (faks / abunə ilə bağlı)

«Vergilər» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və «Azərbaycan» nəşriyyatında çap olunmuşdur.

**Tiraj: 11000**

## idman

# Paralimpiya Oyunlarında iki idmançımız rekord nəticə göstərib



Braziliyanın Rio-de-Janeyro şəhərində təşkil olunan XV Yay Paralimpiya Oyunları başa çatıb. Sentyabrın 19-da dünya şöhrətli «Marakana» stadionunda bu mötəbər idman bayramının bağlanış mərasimi keçirilib.

Qeyd edək ki, 170-dək ölkədən 4000 paralimpiyaçının qatıldığı yarışlarda idmanın 22 növü üzrə 528 dəst medal uğrunda gərgin mübarizə gedib. Azərbaycan da daxil olmaqla yalnız 82 ölkənin idmançılarının mükafatçılar sırasına düşə bildiyi Oyunlarda ümumi komanda hesabında 1-ci yeri 105 qızıl, 81 gümüş və 57 bürünc medal qazanmış Çin idmançıları tutub. İkinci yerdə Böyük Britaniya (64 qızıl, 39 gümüş, 44 bürünc), üçüncü yerdə isə Ukrayna qərarlaşıb (41 qızıl, 37 gümüş, 39 bürünc). Azərbaycan millisi yarışlarda 1 qızıl, 8 gümüş və 2 bürünc olmaqla ümumilikdə 11 medal qazanıb.

Paralimpiya yığmamız medalların ümumi sayına görə iştirakçı ölkələr arasında 33-cü, Avropa ölkələri arasında 16-cı, müsəlman ölkələri sırasında 6-cı, MDB ölkələri arasında isə 3-cü yerdə qərarlaşıb. İki idmançımız «Rio-2016»da yeni rekordlara imza atıb. Belə ki, F-12 kateqoriyasında İradə Əliyeva nizəatma yarışında (42.58 ) Paralimpiya rekordunu, Yelena Çebanu isə 100 metr məsafəyə qaçışda (11.71) Avropa rekordunu yeniləyib.

Xatırladaq ki, idmançılarımız 20 il ərzində - 6 Paralimpiya Oyunlarında 9 qızıl, 18 gümüş, 11 bürünc olmaqla 38 medal əldə edib. «Rio-2016»da Ramil Qasımovun qızıl medal əldə etməsi ilə Azərbaycanın Paralimpiya tarixində çempionlarımızın sayı 7-yə yüksəlib. Onlardan iki nəfəri ikiqat Paralimpiya çempionu və üçqat Paralimpiya mükafatçısıdır.

# Dünya çempionatında üçüncü yer



Tbilisidə keçirilən yeniyetmə güləşçilərin dünya çempionatında Azərbaycan yığma komandası üçüncü yeri tutub. Pəhləvanlarımız turniri 1 qızıl, 1 gümüş və 2 bürünc medalla başa vurublar.

Azərbaycan Güləş Federasiyasından verilən məlumata görə, qızıl medalı yığmamıza 69 kiloqram çəki dərəcəsində mübarizə aparan Abubakir Abakarov qazandırıb. Mahir Məmmədzadə (42 kq) yalnız finalda uduzaraq gümüş medalla kifayətlənməli olub. Bürünc medallara isə İnal Jopua (63 kq) və Asxab Həmzətov (100 kq) layiq görülüblər. Yığma komandamız çempionatda böyük məşqçi Arif Abdullayevin və məşqçi Rövşən Umudovun rəhbərliyi ilə mübarizə aparıb.

Komanda hesabında 47 xal toplayan gənc güləşçilərimiz dünya çempionatını üçüncü sırada tamamlayıblar. Rusiya millisi (69 xal) birinci, ABŞ yığması (67 xal) isə ikinci yeri tutub.

# Milli komandamız pley-off mərhələsinə vəsiqə qazanıb

Kolumbiyada təşkil olunan futzal üzrə dünya çempionatının final mərhələsində Azərbaycan milli komandası qrupdakı üçüncü oyununu keçirib. Yığmamız Medellin şəhərindəki «Coliseo İvan de Bedout» İdman Kompleksində İran millisi ilə qarşılaşıb. 3:3 hesablı heç-heçə ilə yekunlaşan görüşdə millimizin üzvü Qallo dubl edib, bir dəfə isə Tyaqo fərqlənib.

Qeyd edək ki, komandamız turnirdə keçirdiyi ilk oyunda Mərakeş yığmasına 5:0 hesabı ilə qalib gəlib, İspaniyaya isə 2:4 hesabı ilə uduzub. Beləliklə, qrupda ilk iki pillədə qərarlaşan İspaniya və Azərbaycan milli komandaları pley-offa yüksəlib. Növbəti mərhələdə millimizin rəqibi Tailand yığması olacaq. Görüş sentyabrın 23-də keçiriləcək.

# Elxan Abdullayev «Neftçi»də...

Son vaxtlar uğursuz çıxışı ilə yadda qalan, xüsusilə ölkə çempionatının IV turunda doğma divarlar arasında «Qəbələ»yə 0:8 hesabı ilə biabırçı məğlubiyyətə uğrayan «Neftçi» futbol klubunun baş məşqçisi postuna Elxan Abdullayev gətirilib. 1970-ci il mayın 19-da Bakıda anadan olan Elxan Abdullayev Azərbaycanda ilk pro-lisenziyalı məşqçidir. Azərbaycan, rus, ingilis, türk, alman, çex, slovak və xorvat dillərini bilir. O, «Neftçi»nin sabiq oyunçusu və baş məşqçisi Ruslan Abdullayevin oğludur.



## mozaika

texnologiya

# «Wi-Fi» şəbəkəsinin sürəti 10 dəfə artırılacaq

Massaçusets Texnologiya İnstitutunun mühəndislərinin «Wi-Fi» şəbəkəsinin idarə edilməsi üçün hazırladıqları yeni üsul böyük tədbirlərdə internetin təmin olunması ilə bağlı problemləri aradan qaldırmağa kömək edəcək. «MegaMIMO 2.0» adlanan yeni alqoritmlər artıq sınaqdan keçirilib. Tədqiqatlar zamanı bağlantı sürətinin ənənəvi texnikalarla müqayisədə üç dəfədən çox artımına nail olunub.



Qeyd edək ki, «MegaMIMO 2.0» adı bu gün simsiz rabitə kanallarının buraxılış qabiliyyətini artırmaq üçün hər yerdə istifadə edilən «MIMO» (Multiple Input Multiple Output) siqnal kodlaşdırılması metodundan götürülüb. Texnologiya müəlliflərindən olan Əfzələddin Hüseyn Həmidin sözlərinə görə, yeni alqoritmlər bağlantı sürətini 10 dəfə artırmaq potensialına malikdir.

Yeni texnologiya hələ ki, stadion və konsert meydançalarında sınaqdan keçirilməyib. Mütəxəssislərin sözlərinə görə, bu texnologiyanın həyata keçirilməsi üçün uzun müddət tələb olunur.

ekologiya

# İqlim dəyişikliklərinə qarşı...

Beynəlxalq idman təşkilatları arasında FİFA birinci olaraq iqlim dəyişiklikləri ilə mübarizə üzrə BMT-nin kampaniyasına qoşulub. Təşəbbüsün məqsədi qlobal temperaturun Selsi üzrə iki dərəcə aşağı səviyyədə saxlanılmasına nail olmaqdan ibarətdir. «Now Neutral Climate» adlı kampaniya qeyri-hökumət təşkilatlarının və özəl sektorun nümayəndələri ilə birgə atmosferə atılan zərərli tullantıların həcminin azaldılmasına yönələn fəaliyyəti nəzərdə tutur.

BMT və FİFA-nın tərəfdaşlığı ilə bağlı keçirilən təqdimat mərasimində iştirak edən federasiyanın baş katibi Fatma Samur deyib: «FİFA tədbirlərdə milyardlarla tamaşaçı toplayır. Bu isə iqlim dəyişiklikləri məsələsinə diqqətin cəlb edilməsi üçün ən effektiv vasitədir». BMT-nin baş katibi Pan Gi Munun bəyanatında bildirilir: «Biz dünyanın hər yerindən özəl şəxsləri və təşkilatları bu mühüm təşəbbüsə qoşulmağa çağırırıq. Səylərimizi birləşdirsək, planetdə bütün insanlar üçün daha firavan, daha təhlükəsiz və daha sağlam bir dünya qura bilərik».

BMT ümid edir ki, digər beynəlxalq idman təşkilatları da FİFA-dan nümunə götürərək ümumi məqsədlərə çatmaq naminə iqlim dəyişmələri ilə mübarizə kampaniyasına qoşulacaqlar.

deyirlər ki...

# Oturaq vəziyyətdə ayaqları tez-tez hərəkət etdirin

Amerikanın Missuri Universitetinin alimləri oturaq həyat tərzi keçirən insanlarla bağlı tədqiqatlar aparıblar.

Oturaq həyat tərzi keçirən insanların ayaqlarını tez-tez hərəkət etdirdikləri bəlli olub. Bu da gələcəkdə baş verə biləcək ürək-damar xəstəliklərinin qarşısını almağa kömək edəcək. Ancaq insan bir vəziyyətdə uzun müddət qaldığı zaman ayaqlarını hərəkət etdirməzsə qan axını azalır və bu ürək xəstəliklərinin riskini artırır.

cəmiyyət

# Böyük Britaniyada plastik banknotlar dövriyyədədir

Birləşmiş Krallığın Mərkəzi Bankının saytında yayılmış məlumata əsasən, artıq bankomatlarda 5 funt sterlinq nominalında əsginazlar təqdim olunur. «Yeni «beşlik» nazik və elastik plastik materialdan hazırlanıb. Bu əsginazlar kağız əsginazlarla müqayisədə 2,5 dəfə dözümlüdür», - Mərkəzi Bankın məlumatında bildirilir.

Yeni dizaynda Uinston Çörçillin portreti və kəlamı həkk olunub: «Mən qan-tər tökməkdən, gərgin zəhmətdən, göz yaşından və alın tərindən başqa heç nə təklif edə bilmərəm».

440 milyon banknot zərb edilib. Yeni pulların aşınmaya müqaviməti güclüdür, suya, şərab ləkəsinə və siqaret külünə davamlıdır. Yuyularkən təhrif olunmur.

Köhnə beşlik funt sterlinqlər gələn ilin may ayına qədər dövriyyədə olacaq. Böyük Britaniyada gələn ildən 10 və 20 funtluq plastik əsginazlar da zərb edilərək dövriyyəyə buraxılacaq.




araşdırma

# Yer kürəsi bir materikdən ibarət olacaq

Dünyanın müxtəlif ölkələrinin geoloqlarının birgə apardıqları hesablamalara görə, gələcəkdə bütün qitələr birləşərək bir materik təşkil edəcək. Artıq qitələrin birləşməsi müşahidə edilməkdədir. Belə ki, qitələr ildə üç santimetr bir-birinə doğru hərəkət edir. Elm adamları bu dəyişikliklər nəticəsində Hind okeanının kontinentlərin birləşməsindən əmələ gələn böyük materikin ortasında qalacağını iddia edirlər. Bundan əlavə Avstraliya ilə Antraktidanın birləşəcəyi, bu birləşmənin Asiyadan kiçik bir körfəzlə ayrılacağı, Sibirin isə tropik iqlim zonası olacağı irəli sürülür.




Alimlər bu yeni materikə Pangey Proksima adını verməyi düşünürlər.

Qeyd edək ki, bir vaxtlar Pangey adlı bir materikdən ibarət olan Yer kürəsi dreyf (axın və ya külək vasitəsilə ayrılma) prosesi nəticəsində qitələrə bölünüb.

səhiyyə

# İlbiz zəhəri şəkərli diabet xəstələrinə kömək edəcək

Avstraliya alimləri gözlənilməz kəşf ediblər. Onlar yırtıcı dəniz ilbizinin zəhərində qeyri-adi üçölçülü struktura malik olan insulin aşkar ediblər. Zəhər ilbizə balıq ovlamaq üçün lazımdır. Zəhərin tətbiqi balığın bədənində qlükoza səviyyəsini kəskin şəkildə azaldır. Beləliklə, diri balıq fəal hərəkətini itirir və zəif ilbizin qurbanına çevrilir.

Alimlər isə diabet xəstələrinin müalicəsi üçün zəhərin tərkibindən insulini ayırmaq qərarına gəliblər. Onların fikrincə, hazırda istifadə edilən insulindən fərqli olaraq, ilbizlərdən alınan insulin daha sürətlə fəaliyyət göstərir. Alimlər qeyd edirlər ki, insan insulininin quruluşu ilbiz zəhərindəki insulindən fərqlidir, amma buna baxmayaraq, öz funksiyalarını yerinə yetirir. Hələlik ilbiz insulininin səmərəliliyi insanlar üzərində yoxlanılmayıb. Lakin alimlər hesab edirlər ki, ilbiz insulini tezliklə birinci və ikinci tip diabetdən əziyyət çəkən qadınlara tətbiq oluna bilər.

**Müdriklər deyib ki...**

*«Bəşər mədəniyyəti – bəşəriyyətin müasir zamanəyə daşınmış fəal yaddaşından ibarətdir».*

*Dmitri Lixaçov (1906-1999)*

